# HƏFTƏ İÇİ

MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

www.hafta.az

№ 73 (3397) Cümə axşamı / 19-25 avqust 2021-ci il Qiyməti 40 qəpik


# Talanan maddi sərvətlərimiz

***Prezident İlham Əliyev:***

*Ermənilər işğal dövründə, eyni zamanda, bizim təbii sərvətlərimizi də qanunsuz olaraq talan edirdilər. Bu işlərdə bəzi xarici şirkətlər onlara yardım edirdi. Bu şirkətlərin indi iki yolu var: ya bizə təzminat ödəyəcəklər, ya da ki, beynəlxalq məhkəməyə gedəcəklər. Artıq məhkəmə prosedurları başlamışdır. Buna biz start verdik, tanınmış beynəlxalq hüquq şirkətlərini dəvət etdik və indi məhkəmə işləri hazırlanır. Kəlbəcərdə Söyüdlüdə, Zəngilanda Vejnəlidə, başqa yerlərdə bizim qızıl yataqlarımız xarici şirkətlər tərəfindən istismar edilirdi. O şirkətlər bilmirdilər ki, bu, Azərbaycan torpağıdır? Bilirdilər! Amma buna məhəl qoymurdular. İndi cavab verəcəklər. Biz demişik, əgər istəmirlərsə ki, biz onları dünya miqyasında biabır edək, gəlsinlər, vurulmuş ziyanı bizə ödəsinlər, təzminat ödəsinlər və ondan sonra rahat yaşaya bilərlər.*

*Bizim meşələrimiz ermənilər tərəfindən məhv edilib. İndi bizim "Azərkosmos"un fotoları var - işğaldan əvvəl neçə min hektar meşə altında idi və indi nə qədərdir. Ağacla dolu olan altmış min hektara yaxın sahəni, meşə fondunu ermənilər dağıdıblar, yəni, kəsiblər. Kəsiblər, talayıblar, aparıblar. Eşitdiyimə görə orada parket işləri, bu biznes çox sürətlə gedirdi. Bu da talançılıqdır. Bu talançılığa görə də cavab verəcəklər. Bizim çaylarımızı zəhərləyiblər. Oxçuçay nə gündədir? Oxçuçay təbii fəlakətdir və onu zəhərləyən yenə də xarici şirkətdir. O şirkət də cavab verməlidir və verəcəkdir. Dəymiş hər bir ziyan hesablanır. Azad edilmiş bütün torpaqlarda, şəhərlərlə, kəndlərdə indi monitorinq aparılır, pasportlaşdırma aparılır, bütün evlərin pasportları hazırlanır, dəymiş ziyan təsbit edilir və biz beynəlxalq məhkəmələrdə dəymiş bütün ziyanın qaytarılmasını tələb edəcəyik.*

*Təbii sərvətlər talan edilib, istismar edilib, çaylarımız zəhərlənib, meşələrimiz qırılıb, evlərimiz dağıdılıb, məscidlərimiz sökülüb. Bunu kim edib? Ermənilər! Cavab verməlidirlər və verəcəklər.*



**Biz beynəlxalq məhkəmələrdə dəymiş bütün ziyanın qaytarılmasını tələb edəcəyik**



30 ilə yaxın davam edən işğal siyasəti həm də torpaqlarımızın təbii sərvətlərinin qanunsuz şəkildə xarici şirkətlər tərəfindən mənimsənilməsinə səbəb oldu. Sirr deyil ki, bu illər ərzində Böyük Britaniya, Fransa, İran, ABŞ, Rusiya, İsveçrə, Almaniya kimi aparıcı dövlətlərin şirkətləri mədənçilik, tikinti, ağac emalı, telekommunukasiya və bu kimi digər sahələr üzrə ölkəmizin icazəsi olmadan fəaliyyət göstəriblər. Xüsusən də 1999-cu ildən etibarən Ermənistan hökuməti xarici şirkətləri Qarabağa investisiya yatırmağa sövq edib. Ümumilikdə isə işğal edilmiş ərazilərimizdə 20-dən artıq ölkənin şirkəti qanunsuz fəaliyyət göstərib. Son 10 ildə həmin şirkətlər tərəfindən Qarabağa 470 milyon dollar məbləğində qanunsuz investisiya qoyulub.

Dünya ictimaiyyətinin gözü qarşısında baş verən bütün bu proseslərə ən sadə misal kimi, işğal müddətində Kəlbəcər rayonunun təbii sərvətlərinin, sənaye əhəmiyyətli ehtiyatları 112,5 ton olan və istismar olunan Söyüdlü (Zod) və ehtiyatları 13 tondan çox olan Ağduzdağ və Tutxun qızıl yataqlarının 20 ildən artıq müddətdə talan edilməsini göstərə bilərik. Belə ki, 1998-ci ildə Kanadanın "Canadian First Dynasty Mines Ltd" şirkəti ilə müqavilə bağlamış Ermənistan hökuməti 2002-2003-cü illərdə Zod yatağından 5 ton qızıl çıxarıb. Bundan savayı, qeyd edilən sahədə Ermənistanın növbəti ortağı Hindistanın "İndian Sterlite Gold Ltd" şirkəti olub.

Qarabağda qanunsuz fəaliyyətlə məşğul olan şirkətlərdən biri də İsveçrənin dünyaca məşhur "FranckMuller" saat markasıdır. Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev də faktı təsdiqləyib. O bildirib ki, Ermənistan tərəfindən üçüncü ölkələrin fiziki və hüquqi şəxsləri cəlb edilməklə Zəngilanın Vecnəli kəndindən qanunsuz olaraq Azərbaycanın qızıl yataqlarının istismarı aparılıb. Təəssüflər olsun ki, bu illər ərzində meşələrimiz də işğal və talançılıq siyasətinin bir parçası hətta əsas hissəsi olub. Azad edilmiş ərazilərdə 1988-ci ildə meşə fondu 228 min hektar təşkil edirdisə, 2020-ci ildə bu rəqəmlər cəmi 174 min hektarı göstərir. Görünən odur ki, 54 min hektar meşə fondu Ermənistan tərəfindən məhv edilib, qırılıb. Bəs görəsən bu haqlı davamızda ölkəmizin şansları nə cür dəyərləndirilir?

■ **Məsələ ilə bağlı hafta.az-a danışan beynəlxalq hüquq üzrə ekspert Səyyad Məcidov hər kəsi maraqlandıracaq bəzi məqamlara da toxundu. Ekspert bildirdi ki, məsələyə bir qədər genis kontekstdə yanaşmaq lazımdır.**

Son 30 ildə bütün beynəlxalq təşkilatlar tərəfindən çıxarılan qərar və qətnamələrin hər biri ermənilərin Azərbaycan ərazilərində təcavüz cinayəti törətdiyini göstərir. Həmin təcavüz cinayətinin tərkibi olaraq da bizim suverenliyimiz altında olan ərazilərin təbii sərvətlərini istismar ediblər:

"Hər kəs bilir ki, işğal müddətində Zəngilan, Kəlbəcər və digər rayonlarımıza xarici şirkətlər cəlb olunub. Məhkəmədə bizim qazanmaq şanslarımızı artıran ən əsas məqam isə ondan ibarətdir ki, işğalda olan torpaqları dövlətimiz beynəlxalq normalara uyğun olaraq özünümüdafiə hüququndan istifadə edərək azad edib. Bu da onu göstərir ki, ermənilər torpaqlarımızı işğal edib. Həmin işğal olunan ərazilərdə istismar etdikləri təbii sərvətlərə görə də məsuliyyət daşıyırlar. Qarşı tərəf törədilmiş cinayətə görə cinayət məsuliyyəti, maddi məsələlərlə bağlı isə maddi məsuliyyət daşımalıdırlar".

S.Məcidov müzakirəyə cənab Prezidentin çıxışlarının birindən xatırlatma ilə davam edərək, məhkəmənin leyhimizə qərar verəcəyinə böyük ümüdlər bəslədiyini vurğuladı:

"Bizim mənimsənilən maddi sərvətlərimizin ya normal şərtlər daxilində dəyəri ödənməli, ya da məhkəmə yolu ilə problem həll olunmalıdır. Bu kimi məsələlər Beynəlxalq Arbitraj Məhkəməsinin səlahiyyətindədir. Hesab edirəm ki, ermənilərin vasitəçiliyi ilə işğaldan azad edilmiş ərazilərimizdə fəaliyyət göstərən şirkətləri udmaq şansımız olduqca yüksəkdir".

Həmçinin beynəlxalq hüquq eksperti uzun illər təbii sərvətlərimizi öz "malı" imiş kimi sovurub aparan belə şirkətlərə müxtəlif sanksiyaların tətbiq olunacağını da istisna etmir.

"Şirkətlər müxtəlif sanksiyaların tətbiq edilməsi məhkəmənin çıxaracağı qərardan asılıdır. Həmin şirkətlərin istismarı məhkəmə tərəfindən təsdiq edildikdən sonra onlar bizə kompensasiya ödəməyə borcludurlar. Əks təqdirdə, Azərbaycan həmin şirkətlər ilə münasibəti dayandırıb, mövcud müqavilələrə xitam verəcək".

Səyyad Məcidov onu da qeyd etdi ki, bu gün beynəlxalq aləmdə belə təcrübələr xeyli var. Əlbəttə ki, bunların çoxu predmeti müxtəlif olan məsələlərdir. Bundan başqa, ekspertin sözlərinə görə, belə məhkəmə prosesləri əsasən aylarla hətta illərlə uzana bilir:

"Biz daha başqa məsələləri də məhkəmə prosesində qaldıra bilərik. Belə ki düşmən tərəf ekologiyaya ciddi ziyan vurub. Ekoloji cinayət törədib. Yəqin ki, artıq proses başlayıb.

İlk növbədə faklar toplanmalıdır. Fikrimcə bizdə qanunsuz istismar ilə bağlı kifayət qədər sübutlar var. Bu faktlar beynəlxalq məhkəmə instansiyalarına təqdim edilir. Məhkəmə prosesi bir, yaxud beşgünlük bir şey deyil. Bu, bəzən aylarla, hətta illərlə davam edən proses olur. Belə məsələlər qısa zamanda həllini tapan deyil. Hesab edirəm, nəticə bizim xeyrimizə olacaq".

✍ ***Banu***

MÜSAHİB

# Zəngəzur vaxtilə bütöv olub



**Firdovsiyə Əhmədova,**
tarixçi alim

***Azərbaycanımız Ali Baş Komandanın iradəsi, qətiyyəti və rəşadətli ordumuzun gücü ilə son 30 ildə işğal altında qalan tarixi Qarabağ torpaqlarımızı vandal ermənilərin əsarətindən azad etdi. Bu gün Azərbaycan dövləti, xalqı özünün tarixi torpaqlarının müqəddəratı, millətinin öz də-də-baba torpaqlarına qayıdışı haqqında düşünür və o, Böyük Qayıdış üçün gələcəyinə məhz Zəngəzur dəhlizindən baxır... Bu istiqamətdə hafta.az-a müsahibə verən tarixçi alim Firdovsiyə Əhmədovanın araşdırmaları əsasında "Zəngəzur Dəhlizindən Tariximizə baxış" edəcək, bizi o torpaqlara çəkən milli-mənəvi, tarixi dəyərləri, bağlılığı unutqan dünyaya bir daha çatdıracağıq...***

*Azərbaycan xalqının həmin torpaqlara qayıtmaq haqqı həm tarixi əsasa, həm mənəvi əsasa söykənir*


▸▸ Səh. 3


MÜSAHİB



**Tofiq Zülfüqarov,**
keçmiş xarici işlər naziri, politoloq

■ Kabildə baş verənlər gizli razılaşmaların nəticəsidir...

■ Qərbin Əfqanıstana xərclədiyi milyardlar, sadəcə, "yeyilib"...

■ Pakistanın "Taliban" üzərində böyük nüfuzu var...


▸▸ Səh. 5


GÜNÜN FOTOSU...



**Kabildən qaçmağa çalışan əfqanlar...**

GÜNÜN SİTATI

*"Əfqanıstanda fərqli vəziyyət yaranarsa, lazım olan planı tətbiq etməyə hazırıq"*



**Hulusi Akar,**
Türkiyənin müdafiə naziri

KARİKATURA




**COVID-ə dəstək!..**

# "Prezidentlə görüşümüz gözlənilməz oldu"

**Sabir Mustafayev,**
fermer

Əgər hər hansı bir xoşagəlməz hal olmasa, köçürülmə davam edəcək. Bu məsələ bir az da arıçılardan asılıdır.


▸▸ Səh. 2


STATİSTİKA



■ 2021-ci ilin yanvar-iyul aylarında Azərbaycan 163,756 mln. ABŞ dolları dəyərində 98 642,64 ton pambıq ixrac edib. İxracın dəyəri ötən ilin müvafiq dövrü ilə müqayisədə iki dəfəyə yaxın, həcmi 68,9% artıb.

Pambıq ixracı ölkənin ümumi ixracının 1,43%-ni təşkil edib. Qeyd edək ki, hesabat dövründə Azərbaycan 134,954 mln. dollarlıq 88 472,31 ton pambıq lifi və 28,802 mln. dollarlıq 10 170,33 ton pambıq iplik ixrac edib.




▸▸ Səh. 4


# Bu il 700 bal toplayan niyə olmadı?

# Sifarişlə aldığımız kabablar

## Menyu

***Milli mətbəximizin incisi olan kababın tarixi, heç şübhəsiz, ilk insanlar qədər qədimdir. Hazırlanma qaydası ilk insanların məişət həyatına olduqca uyğun olan bu yemək növü ətin bişirilərək istifadə edildiyi zamanlarda yaranıb. Təbii ki, o zamanlar indiki kimi növbənöv çeşidlərindən söhbət gedə bilməzdi. İndi isə "Lüləkabab", "Tikəkabab", "Toyuqkabab", "Balıqkabab" kimi çeşidləri süfrələri bəzəyir. Kababı çox zaman "şişlik" də adlandırırlar. Şişlik, yəni şişdə qızardılan ət mənasındadır. "Şiş" - türk sözüdür, yəni - ucubiz, iti olan əşya.***

Hafta.az-ın "menyu" rubrikasının bugünkü mövzusu da məhz kabablarla bağlıdır. Belə bir deyim var ki, "Şişkabab Türkiyədən Şərqə doğru böyük bir yol keçmişdir". Deyilənlərə görə, şişkababı daha çox türk əsgərləri dincələrkən qılınclarının uclarına ət taxaraq çatdıqları ocaqların közündə qızardarmışlar. Şişkabab Türkiyədən İrana, oradan Əfqanıstana və Pakistana, hətta Hindistana qədər gedib çatmışdır. Belə bir uzun yol qət edən şişkabab yolboyu müxtəlif formalara salınmışdır. Suriya və İordaniyada şişkababın ətini dairəvi kəsərək acı-yaşıl bibərlə qızardıb, üstünə cəfəri səpirlər, İsraildə şişkababı hindquşunun (hinduşka) ətindən edirlər. İranda isə şişkababı daha çox balıq ətindən hazırlayıb üstünə zəfəran, zeytun yağı və otlar əlavə edirlər.



*"Kabab bişirildikdən 2, maksimum 3 saat ərzində istehlak edilməlidir*

Bu gün, demək olar ki, onlayn sifariş xidməti mövcud olan əksər restoranların ən çox aldıqları sifariş də kabablardır. Bəs görəsən, qarnımızı doyuran bu ləzzətli yemək sağlamlığımızın da qeydinə qalmağa kifayət edirmi? Kabab sifariş verərkən evə gələn yemək restorandakı qədər sağlamdırmı?



**Ağa Salamov,**
qida texnoloqu

**■ Mövzu ilə bağlı saytımıza danışan qida texnoloqu Ağa Salamov bildirdi ki, kabab isti-isti yeyilməlidir. Çox vaxt onu birdəfəlik "falqa" qablara qoyurlar. Bu, qablardan qidaya kimyəvi maddələrin keçməsinə səbəb olur:** "Nəzərə alsaq ki, yeməyin üzəri "streç"lə bağlanır, onun da tərkibindəki dioksin maddəsinə kabab hopmuş olur. Əslinə qalsa, onlayn çatdırılmanın əleyhinə deyiləm. Burada əsas məqam kababın necə bişirilib təqdim olunması məsələsidir. Yeməyi müştəriyə tam sağlam şəkildə çatdırmaq şirkətin borcudur". Ekspert deyir ki, kababı bişirib saxlamaq olmaz. O, bişirildikdən 2, maksimum 3 saat ərzində istehlak edilməlidir. Həmçinin bişmə zamanı ət ilə köz arasındakı məsafəyə diqqət olunmalıdır:

"Bişirilmə qaydasına gəldikdə isə onu deyə bilərəm ki, bu məqamda köz ilə ət arasındakı məsafəyə xüsusi diqqət edilməlidir. Bəzən görürsən ki, cəmi 5 santimetr məsafə var, hətta ət közə dəyir. Bu da kömürdən müəyyən zərərli maddələrin keçməsinə səbəb olur. Ona görə də əti közdən minimum 10 santimetr aralıda bişirmək lazımdır".

A.Salamov bir məqamı xüsusi vurğuladı. Belə ki, sən demə, kabab hazırlayan zaman hər ətə individual yanaşma göstərmək lazım imiş:

"Kababların çeşidlərinə görə onlara vurulan ədviyyatların növləri də dəyişir. Məsələn, danabasdırmaya kəklikotu, süd, soğan, duz və istiot vurulur. Bundan başqa bişirilən heyvanın yaşı və növü də nəzərə alınmalıdır. Yaşlı heyvanı soğan ilə basdırma edib təqdim edirlər. Həmçinin ona öncədən duz vurulmur, yalnız bişdikdən sonra əlavə edilir. Bu da ətin bərkliyinin qarşısını alır. Əgər quzu ətinin kababı hazırlanırsa, quzuya duzdan başqa heç nə əlavə edilmir və bişirilir".

*Banu*

## HƏFTƏ REYTİNQ

### Həftənin BƏYANATI



"Biz, eyni zamanda, Kəlbəcər, Laçın istiqamətində dövlət sərhədimizi möhkəmləndiririk". Bu sözləri Prezident İlham Əliyev Kəlbəcər rayonuna səfəri zamanı çıxışında deyib: "Bu sərhəd 30 ilə yaxın müddət ərzində ermənilərin əlində idi və biz may ayında qarlar əriyəndən sonra bu sərhədlərə çıxmışıq, öz mövqelərimizi tutmuşuq, Zəngəzurda yerləşmişik və orada möhkəmlənirik. Bu, bizim torpağımızdır. Ermənistan tərəfindən səslənən fikirlər tamamilə əsassızdır. Biz öz torpağımızdayıq, Qaragöl də bizimdir, başqa yerlər də bizimdir. Biz gəlmişik. 30 il bu ərazi ermənilərin əlində idi. Əgər o sərhəd onların dediyi yerdən keçirdisə, durardılar o sərhəddə. Durardılar, deyərdilər ki, sərhəd budur. Nə oldu bəs? Biz gələndən sonra, durandan sonra dedilər ki, yox, biz düz yerdə durmamışıq. Biz düz yerdə durmuşuq, harada lazımdır, orada durmuşuq və əgər istəsək, harada lazım bilsək, orada da duracağıq. Onu heç kim unutmasın".

### Həftənin QAÇAĞI



"Əfqanıstan Prezidenti Əşrəf Qani, keçmiş Əfqanıstan Prezidentinin köməkçisi, marşal Rəşid Dostum və keçmiş Bəlx valisi Nur Məhəmməd Attanın da aralarında olduğu yüksəkçinli əfqan rəsmilər Özbəkistanda deyil". Bu barədə Özbəkistan Xarici İşlər Nazirliyinin yaydığı məlumatda deyilir. Bildirilib ki, müxtəlif mətbuat orqanlarında yayımlanan belə xəbərlər həqiqəti əks etdirmir. Qeyd edək ki, "Taliban"ın Kabili ələ keçirməsindən sonra bəzi mətbuat orqanlarında Qani, Dostum və Attanın Özbəkistana getdiyinə dair xəbərlər yayılmış, özbək rəsmi dairələri bununla bağlı indiyədək hər hansı açıqlama verməmişdi. Qaninin ölkəsindən qaçarkən yanında 70 milyon dollar apardığı iddia olunur.

### Həftənin MƏHKUMU



Bakı Ağır Cinayətlər Məhkəməsində Binəqədi Bələdiyyəsinin sədri Niyaz Niftiyev, bələdiyyə sədrinin müavini olmuş Mətanət Nəsibova və Bələdiyyə vergiləri və yerli gəlirlər şöbəsinin müdiri Sahib Abışovun cinayət işi üzrə məhkəmə iclası keçirilib. İclasda çıxış edən dövlət ittihamçısı Niyaz Niftiyev və Sahib Abışov barəsində 2 il 6 ay müddətinə sınaq müddəti seçilməklə, Mətanət Nəsibova barəsində isə 2 il müddətinə sınaq müddəti seçilməklə şərti cəza verilməsini istəyib. Hökmə əsasən, Niyaz Niftiyev 2 il müddətə azadlıqdan məhrum edilib. Onun cəzası şərti hesab edilib və ona 2 il sınaq müddəti tətbiq edilib.

### Həftənin AYRILIĞI



İllərdir " O Ses Türkiye" müsabiqəsinin münsiflərindən biri olan pop ulduz Hadisə yeni mövsümdə iştirak etməyəcək. Hafta.az xəbər verir ki, bu barədə məlumatı "Hürriyet" yayıb. Məlumata əsasən, Hadisənin Ebru Gündeşlə yaşadığı polemikadan sonra prodüser şirkəti "Acun Medya" belə bir qərar verib.

### Həftənin MƏRHUMU



Almaniya millisinin və "Bavariya"-nın sabiq hücumçusu, futbol tarixinin ən yaxşı bombardilərindən olan Herd Müller vəfat edib. 76 yaşında dünyasını dəyişən əfsanəvi futbolçunun ölüm səbəbi açıqlanmır. Qeyd edək ki, Müller karyerası ərzində 580 oyunda 523 qol, 104 məhsuldar ötürmə müəllifi olmuşdu. O, üç dəfə Avropa kubokunun qalibi olub. Futbolçu 1964-1979-cu illərdə "Bavariya"da çıxış edib, eləcə də Almaniya millisinin uğurları üçün çalışıb.

### Həftənin OLAYI



Biləsuvarda özü ilə birgə körpə oğlu Poladı da çaya atan Gülər İmanzadənin atası Kamal İmanov vəfat edib. Poladın babası ürəktutmadan dünyasını dəyişib.

Qeyd edək ki, K. İmanov uzun illər sakini olduğu Nəsimikənd kəndində icra nümayəndəsi olub.

Xatırladaq ki, bir neçə gün əvvəl Biləsuvarda Gülər İmanzadə azyaşlı körpəsi Poladı və özünü kanala atıb. Nəticədə körpə həyatını itirib. Poladın 11 gün əvvəl bir yaşı tamam olmuşdu.

*Azad Əliyev*



# Qarabağla bağlı o qədər informasiya almışıq ki...

***Rəssamlar İttifaqının rəyasət heyəti Zəfər gününün ildönümü münasibətilə rəssamların geniş bir sərgisini keçirmək niyyətində olduğunu bildirəndə mən də daxil olmaqla hər bir rəssam axtarışlara başladıq. Bu sözləri AZƏRTAC-a müsahibəsində Əməkdar rəssam Aydın Rəcəbov deyib.***

"Son bir ildə biz Qarabağla bağlı o qədər informasiya almışıq ki, onların hərəsi bir mövzudur. Bunları ümumiləşdirib bir əsərlə çıxış etmək olduqca çətindir. Ancaq biz rəssamlar Zəfər yürüşü ilə bərabər Azərbaycan tarixini də göstərmək istəyirik. Çünki elə rəssamlar var ki, tarixi mövzuda Xətaidən, digəri isə tarixi qəhrəmanımız Babəkdən bir süjet yarada bilər. Biz hətta Azərbaycan Demokratik Respublikasının qurulmasında iştirak edən türk qoşunlarının da rəşadətini göstərə bilərik. Əminəm ki, hər bir rəssamın bu mövzularla bağlı yarımçıq qalmış əsərləri var. Onlardan nəinki fırça ustaları, eyni zamanda keramika, metal, xalça və rəssamlığın digər növləri ilə məşğul olan peşəkarlar bu sərgidə çıxış edəcək. Onlar öz işləri ilə bağlı əvvəlcədən məlumat verməyi sevməsələr də əminəm ki, bu möhtəşəm tədbirimizdə ortaya mükəmməl bir əsər qoyacaqlar", - deyə A.Rəcəbov bildirib.

# "Nar" "Zirə" Peşəkar Futbol Klubunun tərəfdaşı olacaq

R

**Gənclərə və idmana aid layihələr icra edən "Nar" və "Zirə" Peşəkar Futbol Klubu arasında sponsorluq və əməkdaşlığa dair müqavilə imzalanıb. Artıq komandanın formasında, ev oyunlarının keçirildiyi meydançanın kənarında "Nar" loqosunu görmək mümkün olacaq.**

Əsas məqsəd "Zirə" PFK-ya dəstək olmaq, futbolun kütləviliyini artırmaq və gəncləri sağlam həyata yönləndirməkdir. Qeyd edək ki, "Zirə" Peşəkar Futbol Klubu 2014-cü ildə təsis edilib. "Qartallar" 1 dəfə Azərbaycan Premyer Liqasının gümüş medallarına sahib olub, 1 dəfə isə ölkəmizi UEFA Avropa Liqasında təmsil edib. Komanda elə ilk cəhddə avrokuboklarda mərhələ adlamağa nail olub.




# Məktəblərin açılması həm də vaksinlənmiş valideyndən asılıdır



**Təhsil Nazirliyinin İctimaiyyətlə əlaqələr sektorunun müdiri Cəsarət Valehov valideynlərin vaksin olunması tələbi ilə bağlı səslənən fikirlərə münasibət bildirib. Sektor müdiri deyib ki, bu sualla bağlı son vaxtlar Nazirliyə jurnalistlər tərəfindən sorğu və telefon zəngləri olur: "Son vaxtlar bizə sorğu, telefon zəngi ilə müraciət edən jurnalist həmkarlarımızın əksəriyyəti eyni sualı verirlər:**

Məktəblərə valideynlərin vaksin olunması ilə bağlı tapşırıq verilibmi? Cavab budur ki, "Xeyr", verilməyib. Ancaq suala cavab verilərkən, həm də "Bəli" demək istərdik. Niyə? Ona görə ki, yeni tədris ilində məktəb təkcə vaksin olunmuş müəllimdən deyil, həm də vaksinlənmiş valideyndən asılıdır. Belə deyilmi!? Bir sözlə, "Təhsil üçün vaksinasiya" bu gün də aktualdır".

## GÜNÜN FOTOSU



Krım yenə su altında...

# Növbəti qapanma iqtisadiyyatımıza necə təsir edəcək?

**Vahid Əhmədov,**
Milli Məclisin deputatı

Belə davam edərsə, əlbəttə müəyyən məhdudiyyətlər olmalıdır. Bu isə ciddi fəsadlara gətirib çıxaracaq.

Səh. 6

## STATİSTİKA



■ Ərazisi Rysiyada 116 dəfə balaca olan Banqladeşin əhalisi Rusiyanın əhalisindən 20 milyon nəfər çoxdur - 165,8 milyon.

■ Dünyada 0-14 yaş aralığında olan uşaqların əhali nisbətində ən aşağı faiz göstəricisi Almaniyaya məxsusdur - 12 faiz. Keniyada isə bu rəqəm 40 faiz təşkil edir.

■ 1917-2016-cı il aralığında dünyada oğlanlar üçün ən məşhur ad Ceyms, qızlar üçün isə Meri olub. Bu müddətdə 5 milyon Ceyms, 3.5 milyon Meri adı qeydə alınıb.



Səh. 7

# Uşaqlarımızı kimlərə əmanət edirik

# Uşaqlarımızı kimlərə əmanət edirik

## Araşdırma

*İş həyatında qadınların rolunun artması uşaqlara baxmaq kimi məsuliyyətin yaranmasına gətirib çıxarır. Əlbəttə, qadın istəyərsə hər şeyi bacarar. Bu işdə isə köməyə dayələr çatır. Yaxşı dayə, yaxud başqa adla desək, baxıcı seçimi ciddi əmək, vaxt və məlumat istəyən məsələdir. Hazırda onlarca baxıcı arasından ən uyğun namizədi seçmək bir xeyli asanlaşıb. Bu iş üçün nəzərdə tutulan şirkətlər var ki, onlar ailələrin istəklərinə uyğun dayələri bir araya gətirib, psixoloji-tibbi və s. yoxlanışdan keçirərək müraciət edənlərə təklif edirlər.*



Hafta.az-ın əməkdaşı "Düzgün dayə nə cür olmalıdır?" sualını əsas götürərək araşdırma apardı. İlk olaraq dayə şirkətləri, qiymətlər və təklif edilən xidmətlər haqqında məlumat topladıq. Belə ki, bu gün həftəiçi 5 gün saat 9-dan 7-ə kimi 1 uşağını dayəyə əmanət etmək istəyən ailə, ən azı, 400 manatından keçməlidir.

> "Seçim zamanı ilk növbədə buna uyğun dayəyə üstünlük vermək lazımdır. Din və dil amili də burada xüsusi rol oynayır

■ **Dayə şirkətlərinin birindən verilən məlumata görə, paketlərin qiyməti müştərinin verdiyi məlumatlara əsasən təyin olunur. Həmçinin onlar yatılı, günboyu və saatlıq xidmət göstərirlər:**

"Dayələr psixoloji testdən keçirilmiş, pediatr və pedaqoqlar tərəfindən təlim almış, çekap olunmuş xanımlardır. Şirkət tərəfindən onlara daimi nəzarət var. Dayəyə hər ay xüsusi proqram verilir. Yemək rasionu belə şirkət tərəfindən təyin edilir. İlkin növbədə valideynə yönəldilir, bəyənildiyi təqdirdə dayələr həmin menyu ilə işləyir. Yaş kateqoriyasına görə zehnin, məntiqin inkişafı, intellektual oyunların qurulması dayənin iş prinsipinə aiddir. Uşaqların sayı, ünvan, dil amilləri də qiymət paketində fərqlilik yaradır. Standart sadə paket - həftənin 5 günü saat 9-dan 7-yə 500 manat hesablanır".

Başqa bir şirkətin xidməti, demək olar ki, oxşar idi. Burada uşaq baxıcılarının maaşı 400, 450-500 manat arasında dəyişir: "Dayələrin aylıq maaşı 400, 450-500 manat arasında dəyişir. Buraya1 uşaq üçün saat 9-dan 7-yə qədər olan müddətdə dayə xidməti daxildir. Dayələrin sağlamlığı haqqında məlumatlar, narkoloji testdən keçmələri, psixoloji yoxlanış şirkət tərəfindən həyata keçirilir. Bundan başqa, hər bir dayənin məhkumluq arayışı, banklara külli miqdarda borcunun olub-olmaması da tərəfimizdən öyrənilir. Dayələr rus və ingilisdilli olmaqla da kateqoriyaya ayrılıblar. Hər bir ailəyə onlara yaxın ərazidə uyğun dayə seçilib yönləndirilir. Dayənin maaşı vətəndaşlarla aralarındakı razılaşma əsasında təyin edilə bilər. Biz sadəcə vasitəçi oluruq". Şirkətlər namizədlərin cürbəcür testlərdən keçərək işə qəbul olunduğunu deyirlər. Söhbət balacaların həyatından gedirsə, dəfələrlə götür-qoy etməkdə fayda var. Unutmayaq ki, azyaşlıların düzgün və sağlam inkişafı hər şeydən vacibdir.

■ **Elə həmsöhbətimiz psixoloq Nərmin Vəliyeva da bu fikirdədir. O söyləyir ki, uşaqların düzgün inkişafında dayələrin çox mühüm rolu var. Ona görə də doğru seçim etmək çox önəmlidir:**

"Hər ailənin xüsusi mühiti var. Seçim zamanı ilk növbədə buna uyğun dayəyə üstünlük vermək lazımdır. Din və dil amili də burada xüsusi rol oynayır".

Psixoloq burada bir məqamı xüsusi vurğuladı. Belə ki, dayəni uşağa pul qarşılığında baxan şəxs kimi görmək olduqca yanlışdır: "Hər insan dayə ola bilməz. Seçim zamanı mütləq şəkildə dayənin psixoloji vəziyyətini bilmək əsasdır. Əgər dayə sinirlərinə hakim ola bilmirsə, hər hansı bu kimi psixoloji problemi varsa, o, övladımıza istədiyimiz tərbiyəni verə bilməyəcək. Yaxşı olardı ki, valideynlər dayəni pul qarşılığında uşağa baxan şəxs kimi görməsinlər. Dayəni övladlarının gələcək həyatında və karyerasında rol sahibi olacaq şəxs kimi dəyərləndirsinlər. Daha sonra savadı və psixoloji vəziyyəti ilə uyğun variantlar seçilsin. Uşaq müəyyən yaşlara gəlibsə, artıq onların da fikirlərini öyrənmək lazımdır".

■ **İşə psixoloji cəhətdən yanaşdıq, qaldı tədrisə verdiyi töhfələri Təhsil eksperti Nabatəli Qulamoğlu hesab edir ki, bu gün təhsilin keyfiyyətinin yüksəldilməsi üçün dayə anlayışı olduqca yersizdir:** "Dayə anlayışı Azərbaycan təhsilində yenidir. Vaxtilə olub, hətta Fransadan dayələr gətirilib. Hesab edirəm, müasir təhsil üçün dayə anlayışı köhnəlib. Təhsil qanununda da yazılıb: "Təhsilin başlıca vəzifəsi vətəndaş yetişdirməkdir", savadlı adam yetişdirmək deyil. Bu, özü də vətəndaş yetişdirmək üçün bir vasitədir. Bunun üçün xüsusi dayə tutmağa nə ehtiyac var? Fikrimcə, təhsilə keyfiyyət gətirmək üçün dayəyə ehtiyac yoxdur. Bu gün təhsil üçün önə çıxan məsələ burada valideynin roludur. Hesab edirəm, bu nöqteyi-nəzərdən dövlət valideyni maddi cəhətdən mükafatlandırmalıdır".

> "İstər qonum-qonşunun tövsiyəsi, istərsə də professional yollarla dayə seçimi edilsin, burada əsas məqam tərəflər arasında güvənin olmasıdır

İstər qonum-qonşunun tövsiyəsi, istərsə də professional yollarla dayə seçimi edilsin, burada əsas məqam tərəflər arasında güvənin olmasıdır. Övladlarımızın sağlam gələcəyi naminə ən xırda detallara qədər araşdırmaq lazımdır ki, sonda düzgün qərar verəsiniz.

✍ Banu

## Problem

**Son günlərdə kütləvi informasiya vasitələrində Binəqədi rayonu, Xocasən qəsəbəsində yaşayan ananın 6 yaşlı oğlunun və 14 yaşlı qızının ögey qardaşı və onun həyat yoldaşı tərəfindən zorakılığa məruz qalması barəsində məlumatlar yayılıb. Dünən isə, Ağstafa şəhəri ərazisində 2 azyaşlı uşağa qarşı zorakı hərəkətlər edilməsi barədə məlumatlar tirajlandı.**





**Psixoloji təsir və hüquqi məsuliyyət**

# Uşaqlara qarşı zorakılıq

Baş Prokurorluğun mətbuat xidmətindən hafta.az-a verilən məlumata görə, Gəncə şəhər sakini Həsənova Zəminə Valeh qızının nəvələrinin zorakılığa məruz qalmasına dair müraciəti əsasında Ağstafa rayon prokurorluğunda araşdırma aparılıb. Araşdırma ilə Mehralıyeva Səadət Həmid qızının müxtəlif vaxtlarda 2013 və 2014-cü il təvəllüdlü ögey övladlarına mütəmadi olaraq döyməklə və sair zorakı hərəkətlərlə əzab verərək onlara çoxsaylı bədən xəsarətləri yetirməsinə əsaslı şübhələr müəyyən edilib.

Bu əməllərə səbəb olanların cəzalandırılması balacaların psixoloji olaraq şiddət görməsi həqiqətini dəyişdirmir.

■ **Psixoloq Nərmin Vəliyeva hafta.az-a açıqlamasında söylədi ki, ailələrdə ögey fərdlər tərəfindən zorakılıq halları çox sıx qarşılaşılan bir məqamdır. Bu gün əksər hallarda yenidən ailə quran şəxslər azyaşlıların fikrini önəmsəmir, yaxud ümumiyyətlə buna ehtiyac görmürlər:**

"Evə gətirilən yeni həyat yoldaşı uşaq üçün onsuz da ayrıca bir travmadır. Uşaqların özlərinə yad hiss etdikləri ailə fərdlərinə qarşı aqressiv davranışları, yaxud normal dəcəllikləri ailədən şiddət görmələrinə səbəb olur. Bəzən isə balacalar şüuraltı olaraq ətrafdan intiqam almaq üçün davranış pozuntuları edirlər. Ailələr isə doğru davranmağı bilmədikləri üçün uşağa psixi, yaxud fiziki şiddət göstərirlər".

> "Bu gün əksər hallarda yenidən ailə quran şəxslər azyaşlıların fikrini önəmsəmir, yaxud ümumiyyətlə buna ehtiyac görmürlər

> Bu kimi hallarla bağlı işgəncə və zorakılıq faktları öz təsdiqini taparsa, təqsirləndirilən şəxslər əksər hallarda məsuliyyətdən yaxa qurtara bilmirlər

Psixoloqun fikrincə, balacaların özlərini ən rahat və güvəndə hiss etdikləri yer evləri və ailə üzvlərinin yanıdır. Əgər uşaqlar güvəndiyi insanlar tərəfindən şiddətə məruz qalırlarsa, onların dəyər duyğusu zərər görür. İrəliləyən illərdə isə bu onların sosial həyatlarına böyük ziyanlar verir: "Uşaqlar "eşitsəl" deyil, "görsəl" tərbiyə olunurlar. Əgər bir uşaq səhv etdiyi zaman şiddət görürsə, onun gələcəkdə şiddət göstərən fərdə çevrilmə ehtimalı böyükdür. Doğma valideyn şiddətə göz yumursa, uşaqların travması daha böyük olur. Uşaqların gələcəkdə depressiya, təşviş pozuntusu qrupuna aid olan bir çox psixoloji problemlər yaşaması qaçılmazdır. Belə ailələrə uşaqları nəzərə almağı tövsiyə etmək düzgün olmazdı. Ailələr onsuz da belə halları normal qəbul edirlər. Yaxşı olardı ki, ətrafdakı insanlar tərəfindən uşaqlar terapiyaya cəlb edilsin. Beləcə, həm də bu, balacaların gələcəyini xilas etmiş olur.

■ **Problemin psixoloji tərəflərinə aydınlıq gətirdik, indi isə qaldı hüquqi müstəvisi. Bu aspektdə yaranmış suallarımıza vəkil Turan Abdullazadə cavab verdi. O bildirdi ki, bu kimi hallarla bağlı işgəncə və zorakılıq faktları öz təsdiqini taparsa, təqsirləndirilən şəxslər əksər hallarda məsuliyyətdən yaxa qurtara bilmirlər:**

"Belə ki, Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə əsasən cinayətin təqsirkar üçün aşkar surətdə hamilə vəziyyətində olan qadın, habelə azyaşlı, qoca və ya köməksiz vəziyyətdə olan və ya təqsirkardan asılı vəziyyətdə olan şəxsə qarşı törədilməsi cinayəti ağırlaşdıran hallardan biridir. Həmçinin Cinayət qanunvericiliyinə əsasən qəsdən sağlamlığa ağır zərər vurma - üç ildən səkkiz ilədək müddətə azadlıqdan məhrum etmə ilə, qəsdən sağlamlığa az ağır zərər vurma-iki ilədək müddətə islah işləri və ya iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə, qəsdən sağlamlığa yüngül zərər vurma isə - min manatdan min beş yüz manatadək miqdarda cərimə və ya iki yüz qırx saatdan üç yüz altmış saatadək ictimai işlər və ya bir ilədək müddətə islah işləri və ya bir ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya bir ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır".

Vəkil onu da söylədi ki, bu cür faktlarla bağlı hüquq-mühafizə orqanlarına şikayətlər daxil olduğu təqdirdə bu kimi işlərdə bədən xəsarətlərinin müəyyən olunması üçün istər istintaq, istər məhkəmə prosesi mərhələsində tibbi-ekspertiza təyin olunur:

"Əgər ekspertizanın keçirilməsi nəticəsində azyaşlılar üzərində ağır, az ağır və ya yüngül bədən xəsarətləri müəyyən olunarsa, verilmiş ekspert rəyi məhkəmədə zərərçəkmişlərin leyhinə sübut kimi istifadə olunur. Bədən xəsarətlərinin dərəcəsini nəzərə almaqla təqsir sübuta yetirilərsə, hakim təqsirləndirilən şəxs barəsində ittiham hökmü çıxarır və ona cəza təyin edir".

✍ Banu

# "Koronavirus ürək xəstəliyini daha da ağırlaşdırır"

## Xəbərdarlıq

***"Ürək xəstələrinin koronavirusa yoluxandan sonra xəstəliyi digər şəxslərlə müqayisədə 5 qat daha ağır keçirmək riski var". Bunu Səhiyyə Nazirliyinin "İnstagram" səhifəsindəki canlı yayımda Nazirliyin mütəxəssisi dosent, invaziv kardioloq Qalib İmanov bildirib. Q. İmanov deyib ki, dünyadakı statistikaya görə bu cür xəstələr daha ağır keçirir, daha çox reanimasiyaya düşür:***



"Xəstəliyin ağır keçməsinə səbəblərdən biri də müalicədə istifadə olunan dərmanların yan təsiridir. Ürək xəstələrində virusa yoluxma ilə bağlı simptom olan kimi həkimlə məsləhət etməsini tövsiyə edirik, ilkin etapda həkimə xəbər vermək çox vacibdir. Ürək xəstəliyi olanlarda koronavirusa yoluxma zamanı xəstəlik daha da ağırlaşır".

Həkim bildirib ki, hətta ürək xəstəliyi olmayanlarda belə virusa yoluxduqda ən çox aretmiyaların yaranması, ürək ritmi pozulması, ürək əzələsinin iltihablaşması, kəskin infarkt riski olur. Onun sözlərinə görə, ürək çatışmazlığı varsa, üzərinə koronavirus gəldikdə tromb riski yaranır və infarkt riski daha da artır: "Ürək-damar xəstələri yüksək risk qrupunda olduğu üçün daha çox vaksin olunmasını istəyirik. Bizə ən çox müraciətlərin sayı da vaksin vurdurub-vurdurmamaqla bağlıdır. Birmənalı olaraq bu cür xəstələr gecikdirmədən vaksin vurdurmalıdır". "COVID-19 virusu infarkt və ürək ritminin pozulmasına səbəb olur". Qalib İmanov bildirib. Onun sözlərinə görə, koronavirusa yoluxma zamanı süni tənəffüs aparatına qoşulma, hətta ölüm riski ən çox ürək-damarla bağlı ağırlaşmada olur: "Bu, hətta ürək xəstəliyi olmayanlarda belə ola bilər. Ona görə də xüsusilə ürək xəstələri virusun ilk simptomlarını hiss etdikdə kardioloqla məsləhət etməlidir". Həklim bildirib ki, dünyada statistikaya görə ürək xəstəliyindən ölüm ölümlər sırasında ilk yerdə tutur: "Koronavirus isə bu riski daha da artırır.

Bunun üçün vaksin olunmaq, maska taxmaq, məsafə saxlamaq lazımdır. Ürək-damar xəstələri mütləq şəkildə vaksin olunsunlar, vurdurmamaq üçün heç bir bəhanə axtarmasınlar.

Vaksinə də dərman kimi baxsaq, yan təsirləri var, amma bunun yan təsirləri COVID-in yaradacağı təsirlərdən qat-qat azdır. Açıq ürək əməliyyatı edənlər, ürəyinə stend qoyulanlar, təzyiq xəstələri, ürəklə bağlı istənilən xəstəliyi olanlar mütləq vaksin olunmalıdır. Ağır ürək çatışmazlığı olan xəstələrinin öz istifadə etdikləri dərman da çoxdur, virusa yoluxanda da çoxlu sayda dərman olur, bu isə riski çox artırır. Ona görə də koronavirusa yoluxma baxımından ən çox ağırlaşma ağır ürək çatışmazlığı olanlarda olur". Onun sözlərinə görə, bir otaqda iki nəfər varsa, mütləq şəkildə maska taxılmalıdır: "Maska taxılmadığı müddətdə 15 dəqiqə ərzində virusa yoluxdurma 100 faizdir, hər iki şəxs maska taxdığı halda isə virusa yoluxmaqdan 95 faiz qoruya bilir".

✍ Banu

# Əlilliyin müəyyən edilməsində yeni qayda

**Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq aparılan sosial islahatların əsas istiqamətlərindən biri də əlillik sahəsini əhatə etməklə, əlilliyin qiymətləndirilməsi sisteminin təkmilləşdirilməsinə, həmin sistemin mütərəqqi dünya təcrübəsi əsasında qurulmasına yönəlib. Dövlət başçısı tərəfindən yeni təsdiq edilən "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Qanun da bu məqsədi özündə ehtiva edir.**

Hafta.az xəbər verir ki, bu barədə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində keçirilən brifinqdə nazirliyin Əlillik siyasəti şöbəsinin müdiri Sabir Qocayev məlumat verib. Bildirib ki, Qanunda edilmiş dəyişikliklər əlilliyin müəyyən edilməsi sahəsində ölkəmizdə ilk dəfə olaraq yeni konseptual yanaşmanı, əlilliyin qiymətləndirilməsinin ənənəvi 3 dərəcə əsasında deyil, daha geniş spektrdə olmaqla, yeni meyarlarla, orqanizmin funksiyalarının itirilməsi faizi əsasında həyata keçirilməsini nəzərdə tutur. Həmin dəyişikliklərlə əlaqədar dövlət başçısı, həmçinin bir sıra Qanun və Məcəllələrdə edilmiş dəyişikliləri də təsdiq edib.

Qeyd olunub ki, qanunvericilikdə "əlilliyinin səbəbi, dərəcəsi" sözləri "orqanizminin funksiyalarının pozulması faizi, səbəbi" sözləri ilə, "I dərəcə əlilliyi olan" sözləri "orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş" sözləri ilə, "II dərəcə əlilliyi olan" sözləri "orqanizmin funksiyalarının 61-80 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş" sözləri ilə və "III dərəcə əlilliyi olan" sözləri "orqanizmin funksiyalarının 31-60 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş" sözləri ilə əvəz edilib. Bu dəyişikliklər 2022-ci il iyulun 1-dən qüvvəyə minəcək və artıq Ümumdünya Səhiyyə Təşkilatının, Avropa ölkələrinin standartlarında olduğu kimi, orqanizmin funksiyalarının itirilməsi faizi əsasında, əsasən özünəqulluq, səmtləmə, qidalanma, sərbəst hərəkət etmə və s. kimi həyat fəaliyyətinin əsas istiqamətlərinin məhdudlaşma dərəcəsi nəzərə alınmaqla əlilliyin qiymətləndirilməsi aparılacaqdır.

Həmçinin qanunvericilikdə "sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlar" sözləri "18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslərin" sözləri ilə əvəzlənir və 18 yaşınadək əlilliyi müəyyən edilmiş məktəbəqədər yaşda olan uşaqların təlim və tərbiyəsinin Fərdi Reabilitasiya Proqramı nəzərə alınmaqla həyata keçirilməsi də nəzərdə tutulur.

✍ Hafta.az

# Növbəti qapanma iqtisadiyyatımıza necə təsir edəcək?

## Müzakirə

**_Son zamanlar Azərbaycanda koronavirusa yoluxanların sayı kəskin şəkildə artmaqdadır. Mütəxəssislər belə bir şəraitdə yenidən sərt karantin rejiminin tətbiq ediləcəyini qaçılmaz sayırlar. Bəs görəsən, təkrar qapanmalar baş verərsə, bu, ölkə iqtisadiyyatına nə təsir göstərəcək və fəsadları nə ola bilər? Bu və digər suallar ətrafında "Həftə içi" qəzetinin müsahibi Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Vahid Əhmədovdur._**

**_- Vahid müəllim, son günlər koronavirus pandemiyasına yoluxanların sayı sürətlə artmaqdadır. Hökumətin təkrar qapanma ilə bağlı qərar verəcəyi təqdirdə, bunun ölkə iqtisadiyyatına təsirləri necə olacaq?_**

- Hazırda vəziyyət elədir ki, qapanmalar olmasa, çox ciddi fəsadlar ortaya çıxacaq. Qapanmalar da təbii ki, ölkə iqtisadiyyatına mənfi təsir edəcək. Əslində, mən qapanmaların tərəfdarı deyiləm. Son günlər yoluxma sayının 3000-3500 civarında olması qapanmanı qaçılmaz edir. Deməliyəm ki, pandemiyanın ölkə iqtisadiyyatına mənfi təsirləri tam aradan qaldırılmadan yenidən virusun alovlanması vəziyyəti daha da çətinləşdirə bilər. Biz pandemiyanın ölkə iqtisadiyyatına mənfi təsirlərini 2020-ci ildə aydın şəkildə gördük. Bu ilin may ayında hökumət müəyyən qədər güzəştə getdi, qapanmaları, məhdudiyyətləri bir qədər azaltdı. Görünür ki, bəzi insanlarımız bunu düzgün anlamadılar və qayda-qanunu pozmağa başladılar. Misal üçün, fikir verdinizsə, insanlar toy mərasimlərində, başqa-başqa yerlərdə daha çox iştirak etməyə başladılar. Bütün bunlar da xəstə sayının artmasına səbəb oldu. Belə davam edərsə, əlbəttə müəyyən məhdudiyyətlər olmalıdır. Bu isə ciddi fəsadlara gətirib çıxaracaq. Əhali işə getmir, işə getmirsə məvacib almır və s. Bu problemlər olacaq. Hər şeydən öncə əhalinin sağlamlığıdır. Ona görə də hökumət ilk olaraq onu fikirləşir. İnsanlar da bunu başa düşməlidir. Məsələn, hərdən şəhərə çıxıram, baxıram ki, heç kim maska taxmır, avtobuslarda yenə sıxlıqdır, məsafə saxlanılmır. Bunların hamısı faktdır. Əslində, iki ilə yaxın bir müddətdə bu xəstəlik sübut etdi ki, çox ciddi xəstəlikdir. Qapanmanı istəməyən insanlar çalışmalıdırlar ki, gigiyenik qaydalara riayət etsinlər. Bu olmasa hökumət də məcbur olacaq ki, əlavə karantin tədbirləri həyata keçirsin. Düzdür, bir daha vurğulayıram ki, qapanmanın tərəfdarı deyiləm. Bu, ümumilikdə dövlət iqtisadiyyatına və işlərimizə mənfi təsir edir. Hazırda Qarabağda böyük quruculuq işləri gedir, müdafiə sahəsini gücləndiririk, yeni silahlar alırıq və s. İş olmayanda, istehsal olmayanda, əlavə dəyər yaratmayanda, əlbəttə, gəlirlərimiz də azalır. Bu mənada heç bir hökumət qapanmaya getmək istəməz. Bu, gəlirlərin, insanların həyat şəraitinin aşağı düşməsinə gətirib çıxarır. Ona görə də qapanmanın deyil, sərt tədbirlərin tərəfdarıyam. Harada oluruqsa-olaq, maska taxmağın, məsafə saxlamağın, gigiyenik qaydalara əməl edilməsinin tərəfdarıyam. Biz gördük axı, qapanmalar olanda da müəyyən problemlər baş verdi. Bu baxımdan qapanma deyil, sərt tədbirlər tətbiq etməliyik.

> "Belə davam edərsə, əlbəttə müəyyən məhdudiyyətlər olmalıdır. Bu isə ciddi fəsadlara gətirib çıxaracaq

**_- Statistikaya əsasən, bu gün Azərbaycan vaksinasiya prosesinə görə, bir çox ölkələrdən öndədir. Bununla yanaşı, ölkədə virusa yoluxanların da sayı artır. Sizcə, bu tərs-mütənasibliyin səbəbi nədən qaynaqlanır?_**

- Statistikaya görə, ölkədə 6 milyona yaxın insan peyvənd olunub. Əgər peyvəndləmə müsbət təsirini göstərirsə, niyə yenidən yoluxma sayı artır? Yəni, burada doğrudan da tərs-mütənasiblik var. Görünür, peyvəndin ciddi təsiri yoxdur. Ya da 2-3 ay təsiri olur, sonra isə itir və yenidən problemlər yaranır. Belə yüksək səviyyədə peyvəndləmə aparılan dövlətdə yoluxma sayı çox olmamalı idi. Bu mənada gündəlik yoluxmanın 3000-3500 nəfər olması müəyyən suallar yaradır. Hesab edirəm ki, peyvəndin keyfiyyət məsələsinə baxmaq lazımdır. Aydınlaşdırılmalıdır ki, peyvənd öz təsirini hansı səbəbdən zəif göstərir? Ola bilər ya statistika düz deyil, yalandır, ya da qeyd etdiyim kimi, peyvəndin keyfiyyətində müəyyən problemlər var.



**Vahid Əhmədov,**
Milli Məclisin deputatı

**_- Bəs, virusun yenidən alovlanmasında saxta COVID pasportu alanların rolu nə qədər ola bilər?_**

- Bu yolla pasport əldə edənlərin sayının çox olduğunu ehtimal etmirəm. Onların sayı lap olsun 500 nəfər. Burada söhbət 6 milyona yaxın adamdan gedir. Statistikaya görə, onların hamısı peyvənd olunub. Bəs o zaman yoluxma sayı niyə artır? Əsas məsələ budur və bunu araşdırmaq lazımdır. Bu peyvəndləmə statistikası ilə artım yox, azalma olmalıdır. Bizdə isə əksinə olaraq yoluxanların sayı artır.

**_- Yəqin, siz də məlumatlısınız ki, artıq iki ilə yaxındır insanların əksəriyyəti pandemiya ilə bağlı xaricə səyahət etməkdən çəkinir. Bu səbəbdən də ölkə daxilində istirahət etməyə çalışırlar. Qiymətlər hamı üçün əlçatan deyil. Bununla bağlı sizin müşahidələriniz nədən ibarətdir? Turizm bölgələrində qiymətlər sizi qane edirmi?_**

- Turizm bölgələrimizdə qiymətlər dəhşətdir. Gedirsən rayonda adicə bir otelə, günlük qiymət 150-200 manatdır. Əslində, son illər bizdə müəyyən şərait yarandığından, turizm imkişaf etdiyindən, insanlarımız ölkə daxilində istirahət etməyə çalışırlar. Eyni zamanda, pandemiya ilə əlaqədar çox adam xaricə getmək istəmir. Ona görə də qiymət məsələsi araşdırılmalıdır, müəyyən monitorinqlər aparılmalıdır. Şişirdilmiş qiymətlər olmamalıdır. Hazırda istirahət mərkəzlərində kim hansı qiyməti istəyir, onu alıb tə edir. Aidiyyəti qurumlar bu işlə məşğul olmalıdırlar. Kim nə qiymət istədi onu qoymamalıdır. Əhali məcburdur. Neyləsin axı? Çıxır gedir istirahətə, 1 həftə, yaxud 10 gün dincəlmək istəyir, orada da qiymətlər yüksək olduğu üçün əziyyət çəkir. Azərbaycanda bu problem var. Baxmayaraq ki, hər rayonda kifayət qədər həm iaşə obyektləri açılıb, həm də digər məsələlər öz həllini tapıb. Yenə də qiymətlər yüksək olaraq qalır. Bu sahədə çalışanlar insanların kənara çıxa bilməməsindən sui-istifadə edərək daxildə qiymətləri bahalaşdırırlar. Təklif olunan qiymətlə xidmət üst-üstə düşmür. Məsələn, qidanın keyfiyyəti ilə bağlı problemlər var. Bizdə Antiinhisar Xidməti var. Düzdür, baxıram ki, işləyirlər, müəyyən cərimələr, sanksiyalar tətbiq olunur. Görünür ki, insanlar bundan dərs götürmürlər. Qiymət məsələsi çox ciddi məsələdir, bununla məşğul olmaq, müəyyən monitorinqlər aparmaqla tənzimləmə prosesi həyata keçirmək lazımdır.

**_- Azərbaycanda aviabiletlərin baha olması da dəfələrlə müzakirə olunan məsələlərdəndir. Bununla bağlı demək olar ki, hər gün tənqidi fikirlər səslənidirilir. Sizcə, aviabiletlərin ucuzlaşmasına hansı səbəblər mane olur?_**

- Məlum məsələdir ki, aviasiya sahəsi Azərbaycanda monopoliyadadır. Əgər Azərbaycanda 10 dənə aviasiya şirkəti fəaliyyət göstərsəydi, aviabiletlərin qiyməti də baha olmazdı. Bu sahədəki mövcud qiymətlər bəlkə də dünyada ən bahalı qiymət sayıla bilər. Azərbaycana aviaşirkətləri buraxmaq lazımdır. Bizdə infrastruktur baxımından heç bir problem yoxdur, aeroport var, təzə aeroport tikilib. Hökumət bu məsələ ilə ciddi şəkildə məşğul olmalıdır. Yəni o sahədəki monopoliya, o sahədəki qiymət məsələsində problem var, ən yaxşı yol özəlləşdirilmədir. Paralel şirkətlər yaradılmalıdır ki, monopoliya, inhisarçılıq olmasın.

✍ Sevinc

# Məktəbli formasının yeni qiyməti

**_Bu il məktəbli formasının modelində heç bir dəyişiklik olmayacaq. Yeni məktəbli formaları təsdiq edilməyib. Bunu hafta.az-a açıqlamasında Bakı Tikiş Evinin (BTE) satış şöbəsinin müdiri Etibar Əzimov bildirib._**



Onun sözlərinə görə, Təhsil Nazirliyindən də köhnə model formalarının qüvvədə olduğu bildirilib: "Formalarla bağlı dəyişiklik yoxdur. Nazirlikdən də bizə dedilər ki, bu il köhnə model forma qüvvədə olacaq. Ona görə bu il də köhnə modelə uyğun formalar tikirik". Məktəbli formalarının qiymətinə gəlincə, şöbə müdiri bildirib ki, bu il qiymətlərdə heç bir dəyişiklik edilməyib: "2017-ci ildən eyni qiymətdir. Bu il də həmin qiymət qalır. Valideynlər hazırladığımız formaları bizim satış mərkəzləri ilə yanaşı, həm də "Bravo" supermarketlərindən də əldə edə bilərlər".

Xatırladaq ki, I-VI siniflər üçün kostyumun qiyməti 40 manat, VII-XI sinif şagirdləri üçün kostyumun qiyməti 46 manatdır. Bu dəstə pencək, şalvar və yaxud pencək, ətək daxildir. Köynəklərin qiyməti 26-dan 54 ölçüyədək 8 manatdır.

Bakı Tikiş Evində məktəbli formasının tikilməsinə başlanılıb. Hazırda proses davam edir. Etibar Əzimov bildirib. Onun sözlərinə görə, hazırda BTE-nin məktəbli formalarının satışı ilə məşğul olan mağazaları da fəaliyyətdədir: "Biz 10 gündür ki, formaların tikilməsinə başlamışıq. Mağazalarımızda da hazır məktəbli formaları var. Biz də yenilərini tikdikcə satış mərkəzlərinə göndəririk. Hazırda məktəbli forması almaq üçün tək-tək gələn valideynlər var, amma say elə də çox deyildir".

✍ Sevinc

# Dövlət hesabına xaricdə təhsil alanlar

**Hazırda xaricdə dövlət hesabına təhsil 3 istiqamətdə həyata keçirilir. Bu barədə hafta.az-ın sorğusuna cavab olaraq Təhsil Nazirliyindən məlumat verilib.**

Nazirlikdən bildirilib ki, 2020/21-ci tədris ili üzrə təhsil alanlardan 20-yə yaxın şəxs "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı", 700-dən çox şəxs Hökumətlərarası Təqaüd Proqramları (HTP), 90-a yaxın şəxs isə "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı" çərçivəsində təhsillərini davam etdirirlər. Ümumilikdə, 800-dən çox Azərbaycan Respublikası vətəndaşı dövlət hesabına xaricdə təhsil alır.

Dövlət xətti ilə təhsilini davam etdirən tələbələr, əsasən, Macarıstan, Çin, Rumıniya, Türkiyə və Rusiya kimi ölkələrdə, Tibb, Mühəndislik, İqtisadiyyat və Kompüter elmləri ixtisasları üzrə təhsil alır.

✍ Hafta.az

# Peyvəndlər nə dərəcədə effektlidir




**Koronavirusa yoluxma sayının kəskin artdığı bir vaxtda mütəxəssislər insanları vaksin olunmağa səsləyir. Bu gün Azərbaycanın hər yerində vaksinasiya üçün lazımi şərait yaradılıb.**

Dünyada COVID-19 virusunun qarşısını almaq məqsədilə hazırlanan müxtəlif vaksinlər üzrə işlər davam edərkən Azərbaycanın seçimi Pekində yerləşən Sinovac şirkətinin "Corona-Vac" peyvəndi olub. Ölkəmizə yanvarın ortalarında çatdırılan vaksinin tətbiqinə yanvarın 18-dən başlanılıb. Bundan başqa, hazırda paytaxt Bakının tibb müəssisələrində Pfizer-BioNTech peyvəndi də tətbiq olunmaqdadır. O, COVID-19 xəstəliyi əleyhinə Azərbaycanda vaksinasiya üçün istifadə edilən sayca 4-cü peyvənddir.

Ölkəmiz üçün yeni olan "delta" ştammı özü ilə müəyyən sualların da yayılıb çoxalmasına səbəb oldu. Bunlardan biri də ölkənin hər yerində tətbiq edilən "CoronaVac" vaksininin bu ştamma qarşı effektli olub-olmamasıdır.

■ **Məsələ ilə bağlı haftaaz-a danışan həkim-infeksionist Nicat Əzimli bildirir ki, "Sinovac"ın hər iki dozasını alan şəxslərdə xəstəliyin daha yüngül keçdiyi müşahidə edilir.** "Delta" ştammına qarşı nə qədər təsirlidir, bu, dəqiq deyildir: "Sinovac vaksininin "delta" ştammına qarşı "Pfizer" qədər effektiv olub-olmadığı barədə dəqiq araşdırma yoxdur.

Pfizer haqqında dünən İsraildəki araşdırmanın nəticəsi olaraq bildirildi ki, "delta"ya qarşı effekti 39-42%-dir".

✍ Banu

# Bu il balın qiyməti ucuzlaşacaq

## İqtisadiyyat

**_"Bu il Azərbaycan balının, əsasən, Ərəb ölkələrinə, Yaponiyaya ixracı planlaşdırılır. Hazırda başlıca hədəfimiz yeni ixrac marşrutları müəyyənləşdirməkdir. İstehsalçıların əlində kifayət qədər məhsul var". Bunu hafta.az-a açıqlamasında Azərbaycan Arıçılar Assosiasiyasının sədri Bədrəddin Həsrətov bildirib._**



Onun sözlərinə görə, ildə xaricə təxminən 20 ton bal satılır. Bu rəqəm böyük olmasa da, gələcəkdə ixrac həcminin artırılması nəzərdə tutulub. Assosiasiya sədri həmçinin qeyd edib ki, bu il istehsal artdığından qiymətlərin aşağı düşəcəyi gözlənilir: "Ötən il balın 1 kiloqramının orta qiyməti 25 manat idi, bu il isə 20 manat gözləyirik. Əldə bal çoxdur, onun satılması üçün qiymətin aşağı düşməsi qaçılmazdır. Bal bu il çox olduğundan, maya dəyəri də aşağı düşüb. Keçən il balın 1 kiloqramının maya dəyəri 10 manata başa gəlirdisə, bu il təxminən 7-8 manata başa gəlib". Bu il Azərbaycanda ötən illə müqayisədə daha çox bal istehsal olunub. Hazırda bal süzümü davam edir və proses avqustun sonunda başa çatacaq. Bədrəddin Həsrətov deyib.O bildirib ki, bu il 7 min ton bal istehsalı proqnozlaşdırılıb. Ötən il bu rəqəm 6 min ton təşkil edib.

Onun sözlərinə görə, ölkədə bal istehsalının artmasına işğaldan azad olunmuş ərazilərə arı ailələrinin köçürülməsi də təsir göstərib: "Ümumiyyətlə, bu il bütün bölgələrdə məhsuldarlıq yüksəkdir. Azad olunmuş ərazilərə pilot olaraq arı ailələrinin köçürülməsi də işimizə müsbət təsir göstərib. Bu il arı ailələrinin də sayında artım var. Ötən il 500 min arı ailəsi var idisə, bu il 540 mindir. Biz gələcəkdə təxminən 300 min arı ailəsinin işğaldan azad olunmuş ərazilərə köçürülməsini planlaşdırırıq".

✍ Sevinc



■ **Zuğulba, Buzovna, Mərdəkan çimərliklərində balıqların tələf olmasına səbəb son günlər havaların isti keçməsi, dəniz suyunun temperaturunun qalxması nəticəsində suda oksigenin azalmasıdır.**

Ekologiya və Təbii Sərvətlər Nazirliyindən hafta.az-a verilən məlumata görə, bunu Bioloji Müxtəlifliyin Qorunması Xidmətinin rəsmisi Mehman Axundov bildirib. O qeyd edib ki, yay aylarında bu, təbii prosesdir və suyun dayaz hissələrində balıqların ölümünü müşahidə etmək mümkündür. Xidmət rəsmisinin sözlərinə görə, tələf olmuş balıqlar üzərində aparılan analizlərin nəticələri də balıq nümunələrində infeksion xəstəliklərin və zəhərlənmə hallarının olmadığını göstərib.



■ **Pambıq istehsalı və emalı ilə məşğul olan şirkətlər məhsul yığımı ərəfəsində pambığın alış qiymətinin artırılması barədə qərar qəbul ediblər.**

Kənd Təsərrüfatı Nazirliyindən hafta.az-a verilən məlumata görə, şirkətlər arasında əldə olunan razılaşmaya əsasən, pambığın növlər üzrə mövcud alış qiymətləri hər tona 50 manat olmaqla, 2021-ci ilin məhsulu üçün 1-ci növün qiyməti 650 manatdan 700 manata, 2-ci növün qiyməti 630 manatdan 680 manata, 3-cü növün qiyməti 590 manatdan 640 manata, 4-cü növün qiyməti 550 manatdan 600 manata qaldırılıb. Bu qərar fermerlərin məhsul istehsalına həvəsləndirilməsi üçün qəbul olunub. Qeyd edək ki, pambıqçılığın inkişafı dövlət tərəfindən dəstəklənir.



■ **Masallı rayonunun Sığdaş kəndində ölkə ərazisində olmayan bəzi şəxslərin qanunsuz olaraq "COVID-19" əleyhinə I doza vaksinasiya olunmaları barədə daxil olmuş material əsasında Masallı Rayon Prokurorluğunda araşdırma aparılıb.**

Masallı Rayon Prokurorluğundan hafta.az-a verilən məlumata görə, araşdırma ilə Masallı RMX-nın feldşeri Ziyafət Ağababayev tərəfindən rayonun Sığdaş kəndinin bəzi sakinlərinin ölkə ərazisindən kənarda olmalarına baxmayaraq, onlara vaksin vurulmadığı halda "COVID-19"əleyhinə I doza vaksinasiya olunması və bu barədə saxta sənədlərin tərtib edilməsinə əsaslı şübhələr müəyyən edilib.




■ **2021-ci ilin iyul ayı ərzində 58 şəhər və rayonun əhalisinə 1 milyondan çox tibbi xidmət göstərilib. Bu barədə hafta.az-a İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyindən məlumat verilib.**

Məlumatda bildirilir ki, icbari tibbi sığortanın tətbiq olunduğu tibb müəssisələri tərəfindən İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinə (Agentlik) təqdim edilən ilkin hesabatlara əsasən, bu ilin iyul ayı ərzində 58 şəhər və rayonda 329 754 vətəndaşa 1 184 204 tibbi xidmət göstərilib. Bu müddətdə tibb müəssisələri, onların struktur bölmələri və müalicə diaqnostika mərkəzlərinə 537 001 müraciət daxil olub. Müraciətlər üzrə göstərilən tibbi xidmətlərin 1 018 178-i ambulator, 166 026-sı isə stasionar şəraitdə göstərilib.



■ **Rusiya sülhməramlı qüvvələrinin nəzarətində olan Azərbaycan ərazilərindəki qanunsuz erməni silahlı birləşmələrinin əsgərləri bir neçə gün əvvəl Şuşanın Sarıbaba kəndini tərk edib gediblər.**

Nəticədə kənd hazırda müdafiəsiz qalıb. Virtualaz.org erməni KİV-lərinə istinadən xəbər verir ki, bu haqda "kənd icmasının rəhbəri" Artak Akopyan bildirib. "Kənd müdafiəsiz qalıb. Şayiələrə əsasən əsgərlərimiz mövqelərindən ona görə çəkiliblər ki, azərbaycanlılar da 3 kilometr geri çəkilsin. Amma hələlik heç nə baş vermir", - o deyib. Akopyanın sözlərinə görə, müəyyən vaxt Rusiya sülhməramlıları kəndi müdafiə etmək üçün gəliblər, amma sonra onlar da gedibdər və daha geri qayıtmayıblar.



■ **Türkiyədə meşə yanğınlarını söndürmək üçün Rusiyadan kirayələnmiş yanğınsöndürən təyyarələri müqavilədə nəzərdə tutulmuş vaxtdan xeyli tez geri dönür. Bunu Azərbaycanın İstanbuldakı keçmiş baş konsulu İbrahim Nəbioğlu özünün sosial şəbəkə hesabından paylaşıb.**

Müqaviləyə əsasən Rusiyadan kirayələnən təyyarələrə görə gündə 350 min TL ödənilib. Müqavilədə təyyarələrin 2021-ci il noyabrın 30-na qədər kirayələndiyi göstərilib. Lakin indi onlar geri dönür. "Rusiyanın yanğınsöndürən təyyarələri ölkələrinə dönür. Amma dönüş tarixi müqaviləyə əsasən 30 noyabr tarixidir. Nələr baş verir, kim bilir...", - İbrahim Nəbioğlu yazıb.

# “Taliban”ı Əfqanıstanda iqtidara gətirən 6 LİDER

***A**BŞ-ın rəhbərliyi altında NATO-nun 2001-ci ildə işğal etdiyi Əfqanıstanda baş verən hərbi çevriliş dünyanın diqqətindədir. Əlbəttə, ABŞ-ın 20 illik işğalı sona çatdırıb, top-tüfəngini Əfqanıstandan çıxarması, bu müddət ərzində ölkənin idarəetməsini tapşırdığı və siyasi varlığını qoruduğu hökumət də süqut etdi - prezident isə xaricə qaçdı. “Taliban” çox qısa vaxtda, ildırım sürətilə, əksər hallarda isə bircə güllə belə atmadan bütünlüklə Əfqanıstanda hakimiyyəti ələ aldı. Bu necə oldu, axı 20 illik işğal dövründə ABŞ-ın ciddi hərbi təlim keçdiyi, müasir silah-sursatla təmin elədiyio 300 minlik ordusu vardı hökumətin.*

## Panorama

Belə böyük ordunun, dini-cəhaləti istəməyən milyonlarla gənc və dünyagörüşlü gənclərin, 40 milyonluq əhalinin təxminən yarısı olan, “Taliban”ın qoyacağı sərt və insan haqlarını heçə sayan əmrlərinə boyun əymək istəməyən 20 milyonluq qadınların dəstəklədiyi hökumət niyə belə asanlıqla yıxıldı?

“Taliban”a bu gücü-zəhmi verən nədir, bəlkə onu yönətənlər dünyanın ən aqil siyasətçiləri və hərbçiləridir? Bilmirəm, bildiyim şeysə budur ki, “Taliban”ı idarə edib, bu gücə-qüvvəyə qovuşduran 6 nəfərdir. İndi də qısaca bu 6 nəfərin kimliyini öyrənməyə çalışaq:

**Heybətullah Axundzadə:**

“Taliban” nümayəndələri onu “möminlərin lideri” və ya “Əmir əl-möminin” adlandırır. Heybatullah Axundzadə, “Taliban”ın ruhani lideri olmaqla yanaşı, siyasi, dini və hərbi qərarlarının verilməsində də son sözü deyir. Təxminən 60 yaşı olan Axundzadə, “Taliban”da tutduğu indiki posta sələfi Ahtar Mansurun 2016-cı ildə ABŞ-ın Əfqanıstan - Pakistan sərhədinə İHA-lar etdiyi hücum zamanı öldüqrülməsindən sonra gəlib. O, 2016-cı ilin may ayında “Taliban”ın lideri seçiləndən sonra bir müddət yoxa çıxmışdı. Elə indi də harada olduğu bəlli deyil.

Qeyd edək ki, Axundzadə 2016-cı ildən öncəki 15 il boyunca (2001-2016-cı illər) Pakistanın cənub-qərbində yerləşən kiçik Kuçlak qəsəbəsində yaşayıb və oradakı məsciddə öz dünyagörüşlərini, islami fikirlərini insanlara çatdırıb, uşaqlara dini dərslər verib və ardıyla da vaizlik yaradıb.

**Molla Məhəmməd Yaqub:**

“Taliban” hərəkatının qurucusu Molla Ömərin oğlu olan Molla Məhəmməd Yaqub təşkilatın hərbi qüvvələrinə rəhbərlik edib. Afqanıstanın keçmiş silahlı qüvvələri ilə baş vermis döyüşlərə məhz o rəhbərlik edib. Hətta 2015-ci ildə onun ölməsi haqda xəbərlər də yayılmış, amma sonradan təkzib edilmişdi.

Yerli mətbuatın yazdığına görə, təxminən 30 yaşlarında olan Molla Məhəmməd Yaqubun hətta, Ahtar Mansur 2016-cı ildə öldürüləndən sonra “Taliban”ın yeni lideri seçilməsi təklifi səsləndirilib. Amma Mansurun xələfinin seçildiyi toplantıda “Taliban” komandanlarından biri, Molla Yaqubun çox gənc olmasını və döyüş təcrübəsinin olmamasını səbəb göstərərək liderlik üçün Axundzadənin namizədliyini təklif edib.

Molla Məhəmməd Yaqub sələfi İbrahim Sədrdən fərqli olaraq daha çox sülhpərvərdir. Onun fikrincə, Əfqanıstanı döyüş yoluyla, qan tökməklə deyil, təbliğatla, daha yaxşı işlərlə birləşdirmək mümkündür. Hansı ki, Sədr sülh danışıqlarını birmənalı şəkildə rədd edir, güc variantına üstünlük verirmiş.

“Taliban” liderləri arasında daha gənc və mülayim insan olan Yaqub, bir az da aatsına görə çox sevilir, hörmət göstərilir. Amma Pakistanda doğulub-böyüməsi, orada təhsil alıb, həyata addım atmasından dolayısı “Taliban”ın daxilində belə özünə qarşı mövqe tutanları var. Hakimiyyət devrilmədən öncə Əfqanıstanın kəşfiyyat orqanları Yaqubu ”özünü haqq sahibi görən” və ”Əfqanıstanın reallıqlarından xəbərsiz” biri kimi təqdim edirdi.

**Siracuddin Hakkani:**

Mücahidlərin olduqca şöhrətli komandiri, vaxtilə “Əl-Qaida” terror təşkilatının lideri olmuş Üsamə bin Ladenin yaxın dostu olmuş Cəlaləddin Hakkaninin oğlu olan Siracuddin, “Taliban”ın Pakistan - Əfqanıstan sərhədindəki maliyyə və hərbi varlıqlarını idarə edən “Hakkani dəstəsi”nin lideri idi. Məhz bu təşkilat Kabildəki məşhur otellərdən birinə silahlı basqın düzənlənməsində, eyni zamanda keçmiş dövlət başçısı Həmin Kəraiyə sui-qəsd cəhdində və Hindistanın Kabildəki səfirliyinə intihar hücumunda günahkar bilinir. Siracuddin Hakkaninin 48-50 yaşlarında olduğu deyilir. Onun da son anadək harada olduği bilinmirdi.

Siracuddin Hakkaninin adı ABŞ-ın tərtib etdiyi terror təşkilatları liderləri siyahısındadır, hətta onun Əfqanıstanda törədilən terror aktlarında birbaşa əlinin olmasına dair fikirlər də səsləndirilir.

Məlumat üçün deyək ki, Hakkani şəbəkəsinin adı bir sıra yüksək çinli əfqan rəhbərlərin öldürülməsində və bir sıra xarici vətəndaşların qaçırılmasında keçir.

Qeyd edək ki, Siracuddin Hakkaninin rəhbərlik etdiyi Hakkani şəbəkəsinin “Əl-Qaida” ilə yaxın əlaqələrinin olduğu bəllidir.

**Molla Əbdül Qani Biradər:**

“Taliban” hərəkatının yaradıcılarından biri olan Molla Biradər hazırda təşkilatın siyasi ofisinin rəhbəridir. O, eyni zamanda, “Taliban”ın Dohadakı müzakirə heyətinin əsas simalarından biridir. Barak Obamanın iqtidarı zamanında hərb işlərini çox yaxşı bildiyi üçün, Ağ Ev Pakistanın təhlükəsizlik xidmətini inandıra bildi ki, Biradəri həbs etmək lazımdır və belə də oldu. MKİ-nin yardımıyla 2010-cu ilin fevralında Kəraçidə Pakistan və ABŞ əsgərləri tərəfindən yaxalanaraq həbsxanaya salınan Biradərlə bağlı adıçəkilməyən bir səlahiyyətli deyirdi ki, ”Biradərin tutulma səbəbi anidən sülh yaratmaq deyil, onun döyüşdə oynadığı roldur. Həqiqəti demək lazımdırsa, Pakistan Biradəri məhz ABŞ istədiyi üçün həbs edərək illərlə zindanda saxladı”. Molla Ömərin ən etibarlı komandirlərindən sayılan Baradar 2018-ci ildə sərbəst buraxılıb. Hazırda Dohada yaşayan Biradərin, Kabil “Taliban”ın tam nəzarətinə keçədən sonra Əfqanıstana qayıdacağına dair məlumat var.

Sovet ordusuna qarşı savaşan Biradər “Taliban”ın mərhum qurucu lideri Molla Ömərin kürəkənidir. Onun 1996-cı ildə, “Taliban”ın Əfqanıstanda hakimiyyətə gəlməsi üçün əsas döyüşlərə rəhbərlik etdiyi deyilir. 2001-ci ildə ABŞ ordusu bu ölkəyə daxil olarkən “Taliban” liderləri Pakistana sığınarkən, Qərb yenə də məhz daha yumşaq xarakterinə və anlaşıqlı siyasət yürütməsinə görə Biradərə üstünlük verib. Elə bu səbəbdən də danışıqlarda Biradər iştirak edib. Geridə buraxdığımız 20 il ərzində bir çox xarici diplomatlar “Ketta Şurası”nda məhz Biradərlə əlaqə saxlayıb.

**Şirməhəmməd Abbas Stanikzay:**

ABŞ tərəfindən 2001-ci ildə devrilmiş Əfqanıstanın “Taliban” hökumətində nazir müavini olmuş Stanikzay 10 ildən artıqdır ki, Dohada yaşayır. 2015-ci ildə “Taliban”ın Dohadakı siyasi ofisinin rəhbəri təyin edilən Şirməhəmməd Abbas Stanikzay, Əfqanıstan hökuməti ilə müzakirələrdə “Taliban” heyətinin ikinci əsas siması olaraq qatılıb. O, hətta “Taliban”ı bir sıra ölkələrə səfərlərdə təmsil də edib.



**Əbdül Həkim Hakkani:**

Bu şəxs “Taliban”ın keçmiş “Məhkəmə sədri” olub. İndiyədək təşkilatla hökumət arasında aparılan müzakirələrə məhz Hakkani rəhbərlik edib. Əbdül Həkim Hakkani eyni zamanda, Din Adamları Şurasının da sədridir. Onun Axundzadənin ən etibarlı adamı olduğu deyilir.

Ümumiyyətlə, “Taliban” hərəkatı necə oldu ki, yaradıldı, hamiləri kimlərdir, məqsəd-məramı nələrdir?

Təşkilatın quruluşu keçmiş SSRİ-nin Əfqanıstanı işğal etdiyi dövrə təsadüf edir. Ərəbcədən tərcümədə mənası “Tələbələr” olan “Taliban” 1994-cü ildə ölkənin cənubunda fəaliyyət göstərən 50 mədrəsənin tələbələri tərəfindən yaradılıb və ilk rəhbəri əslən Qəndəhardan olan, bir müddət Pakistanda təhsil almış Molla Ömər Axund olub. Adət və ənənələri, İslam prinsiplərini özünə şüar seçən təşkilat qısa vaxtda ölkənin dindar və mühafizəkar əhalisi arasında şöhrət qazanır, sıralarını genişləndirir. “Taliban”ın başlıca prinsipi Əfqanıstanda İslama-şəriətə söykənən dövlət yaratmaqdır.

Bu arada, qeyd edək ki, “Taliban” ABŞ-ın da xeyir-duası ilə Pakistanın ciddi əməyi nəticəsində sovet işğalçıları ilə mübarizə aparmaq məqsədilə yaradılıb. İslamabad hökuməti o vaxt ehtiyyat edirdi ki, SSRİ Əfqanıstandan sonra Hind okeanı sahillərinə enmək üçün Pakistanın Bəlucistan bölgəsini də ələ keçirə bilər. Odur ki, “Taliban”ın qurulmasına qərar verdi. Təşkilatın peştunlardan təşkil olunmasına gəldikdə, Əfqanıstanda yaşayan peştunların üç dəfə artığı Pakistanda öz etnik ərazilərində yaşamaqdadır. Pakistan həmişə narahat olub ki, Əfqanıstanda azadlığını əldə etmiş peştunlar nə vaxtsa onlara ərazi iddiası irəli sürə, pakistanlı peştunları silahlandıra, dövlətin üstünə qaldıra bilər. Axı Pakistanla düşmənçilik edən ölkələr vardı regionda, onlar hər vəchlə milli-etnik silahlı münaqişələr yaratmağa fürsət arayırdılar. Bu səbəbdən də məhz peştunlardan ibarət “Taliban”ın yaradılması və himayə edilməsi İslamabadın işinə tam yarayırdı.

Yeri gəlmişkən, Pakistan “Taliban”la əlaqəsinin olmasına dair iddiaları 11 sentyabr terrorundan sonra rədd edib (eləcə də bəzi ərəb ölkələri), amma fakt faktlığında qalır...

“Taliban” yarandıqdan cəmi bir neçə ay sonra 20 min üzv toplaya bilib. Bu gün isə 200 mindən çox üzvü var. Təşkilatın yaradıcıları və sıravi üzvləri əsasən Azərbaycanda puştunlar dediyimiz peştunlardır. Təsadüfü deyil ki, yarandıqdan qısa vaxt sonra Pakistandakı etnik baxımdan Peştun olan Mövlana Samiul Hakkın rəhbərliyi altında Darul Ulum Hakkaniyyə mədrəsəsinin tələbələrinin yarıdan çoxu “Taliban”a qatılır.

Bir sıra şərkçilərə görə, “Taliban” həm yaranışda, həm də fəaliyyəti dövründə həlledici dəstəyi Pakistanın kəşfiyyat idarəsi olan İSİ-dən alıb. Bura təşkilat üzvlərinin döyüşə hazırlanmasından maliyyə dəstəyinədək hər şey daxildir.

Beləliklə, “Taliban” qurulduqdan qısa vaxt sonra Əfqanıstanın ikinci iri şəhəri olan Qəndəhara hücum edir və 1994-cü il noyabrın 3-də heç bir müqavimətlə rastlaşmadan şəhərə nəzarəti ələ keçirir. Hücumlar dayanmır və 1995-ci ildə artıq ölkənin 12 böyük şəhərini tuturlar. Korrupsiya və rüşvətxorluqla mübarizədə qazandığı uğurlar xalq arasında “Taliban”a rəğbəti artırır. 1995-ci ildə paytaxt Kabilə üç istiqamətdən daxil olan “Taliban” qüvvələri, Sovet ordusuna qarşı müqavimətdə ciddi ad çıxarmış tacik əsilli Əhməd Şah Məsudun döyüşçüləri ilə qarşılanır və ağır məğlubiyyətlə üzləşir. Amma geri çəkilmirlər, Pakistandan və körfəz ölkələrindən böyük maliyyə və silah dəstəyi alaraq mövqelərini gücləndirir və nəhayət, 1996-cı il sentyabrın 26-da Əhməd Şah Məsud qüvvələrini paytaxtdan çıxarıb aparır.

Sentyabrın 27-də “Taliban” döyüşçüləri paytaxta daxil olur və ilk olaraq BMT-nin Əfqanıstandakı Ofisinə sığınmış sovetyönümlü prezident Məhəmməd Nəcibullah Əhmədzayla qardaşı Şahpur Əhmədzayı edam edirlər. Bu vaxtadək silahlı döyüşçülərdən ibarət olan “Taliban” hökumət qurur, Əfqanıstanı İslam Əmirliyi elan edir. Ardıyla da təşkilatın rəhbəri Molla Öməri “Əmir əl-Möminin” (Möminlərin əmiri) elan edir və onun adına bütün məscidlərdə xütbələr oxunur. Təbii ki, yeni hökumətin legitimliyi Pakistan, eləcə də Səudiyyə Ərəbistanı və Birləşmiş Ərəb Əmirlikləri tərəfindən əlüstü tanınır. Hakimiyyətin ilk günlərindən başlayaraq “Taliban” çox sərt və orta əsrlərə xas qərarlar qəbul edir. Məəslən, şəriətə söykənən idarəetmə sistemi təsdiqlənir, sünniliyin Hənəfi qolu əsas götürülür, şərit qaydalarına necə əməl olunduğuna nəzarət məqsədilə Əmr-i bil Maruf (yaxşılığı əmretmə) nazirliyi yaradılır. Həyatın hər sahəsindən təcrid edilən qadınlara çadraya bürünmə və üzlərini niqabla örtmək məcburiyyəti gətirilir, işləmək yasaqlanır, qızlara məktəbə getmək, təhsil almaq qadağan olunur, kişilər isə başlarına əmmamə qoymağa və saqqal saxlamağa məcbur edilir. Hətta saqqalını kəsənlər 6 aydan başlayaraq həbs cəzasına məhkum edilir, üzünü niqabla örtməyən qadınlar isə şallaqlanırdı.

Əfqanıstanda teleyayım dayandırılır, fotoşəkil çəkdirmək də daxil, hər cür şəkillər, musiqi yasaqlanır. Kişilər məcburən evlərinə ən yaxın məscidlərə gedərək gündə 5 rükət namaz qılmalıydılar. Hətta onların bu qaydaya əməl edibetməmələrinə nazirlik tərəfindən ciddi nəzarət olunurdu. Kimsənin namaza getmədiyi məlum olsaydı, həmin şəxs şallaqlanar, cərimə ödəyər və ömrünün bir neçə ilini də zindanda keçirərdi. Ölkədəki bütün məktəblər mədrəsəyə çevrilir və dərs kitablarındakı şəkillər silinir.

Mədrəsələrdə isə 3-cü sinifdən başlayaraq bütün oğlanlar başlarına ən azı 3 metr uzunluğunda sarıq sarımağa (əmmamə qoymağa) məcbur edilir. Ələ keçirilən bütün komputerlər televizor hesab edilərək sındırılır. Bütün bu yasaqlara etiraz edənlər isə həbs olunur, hətta edam edilir.

O dövrdə çox sayda insanın əlləri müxtəlif səbəblərdən kəsilirdi. Əllərin kəsilməsi və ümumiyyətlə, edamlar günorta namazından sonra edilirdi və proses əhaliyə göstərilirdi. Hətta şəhərin mərkəzində kəsilmiş əllərin sərgisi təşkil olunur. Amma necə deyərlər, sən saydığını say, gör fələk nə sayır. 2001-ci il sentyabrın 11-də Nyu Yorkda baş vermis unudulmaz terror hadisəsindən sonra - oktyabrın 7-də ABŞ NATO ölkələrini də yedəyinə alaraq Əfqanıstana hücum edir və çox qısa vaxtda ölkə işğal olunur - “Taliban” son qalası sayılan Qəndahara sığınır. Amma ABŞ-ın hücumlarına dayana bilməyib oradan da dağlara çəkilir. Buna baxmayaraq, təşkilat partisan taktikası əsasında 2002-ci ildən üzübəri mübarizəsini davam etdirir.

Nəhayət, 2020-ci ilin fevralında ABŞ-ın keçmiş prezidenti Donald Tramp taliblərlə saziş imzalayır və bu ilin may ayından başlayaraq ördusunu Əfqanıstandan çıxarmağa dair öhdəlik götürür. Söz yox, yeni prezident Co Bayden sadəcə həmin sazişi yerinə yetirir, amma “Taliban” öhdəliyi pozaraq ölkəni silah yoluyla ələ keçirir və budur, prezident Əşrəf Qani Tacikistana qaçır və ölkəni yenidən taliblər idarə edir.

*✍ Vüsal Tağıbəyli*



**Tofiq Zülfüqarov,**
keçmiş xarici işlər naziri,
politoloq

## Müsahib

***K**eçmiş xarici işlər naziri, politoloq Tofiq Zülfüqarovla hafta.az üçün növbəti söhbətimizdə o, Əfqanıstanda baş verən son gözlənilməz olay və prosesləri müxtəlif aspektlərdən şərh edib, Azərbaycan Dövlətinin Kabildə formalaşmaqda olan yeni hakimiyyətlə mümkün əlaqə perspektivlərindən danışıb.*

# Kabildə baş verənlər gizli razılaşmaların nəticəsidir...

***- Tofiq bəy, Əfqanıstanda son günlər nə baş verir? Necə oldu ki, “Taliban” ABŞ-ın, rəsmilərin dediyinə görə, 20 il ərzində formalaşdırılmasına dəstək verdiyi Əfqanıstan Hökumət Ordusu qısa müddətdə o qədər də böyük saya malik olmayan taliblər qarşısında məğlub oldu?***

- Bilirsiniz, Əfqanıstanda mənzərə hələ yenicə formalaşır. Konkret bir söz demək çətindir, hiss olunur ki, baş verənlər hansısa gizli razılaşmaların nəticəsidir. Öncədən belə bir məlumat vardı ki, “Taliban”ın Qətərin paytaxtı Dohada olan nümayəndəliyi uzun müddətdir ABŞ tərəfi ilə danışıqlar aparıb. Bu baxımdan çox qəribə bir vəziyyət yaranıb. 34 milyonluq Əfqanıstan xalqı müqabilində taliblərin cəmi 70 minlik tərəfdarı olduğu halda, hökumətin 300 minlik ordusu bir neçə həftəyə onların qarşısında məğlub duruma düşdü. Bu faktın özü çox şeydən xəbər verir. Belə bir durum da öncədən razılaşma olması ehtimalını gücləndirir. Bu, kənardan müşahidə edənlər üçün çox gözlənilməz oldu...

ABŞ - “Taliban” danışıqları hələ Baydendən əvvəl uzun müddət aparılıbdır. Bir il öncə bəlli idi ki, ABŞ qoşunları Əfqanıstandan 2021-ci ilin mayında çıxmalıdır. Son vaxtlar isə ölkədə cəmi 2 minə yaxın Amerika hərbçisi olub. Yəni “Taliban”a qarşı hərbi əməliyyatları əsasən Əfqanıstanın hökumət ordusu aparıb. Görünür, ABŞ artıq bundan sonra Əfqanıstan üçün bu qədər vəsaiti, canlı qüvvəni xərcləməyin əhəmiyyəti olmadığını anlayıb. Ona görə də amerikanlar, necə deyərlər, “otaqda işığı da söndürüb” çıxıb gediblər. İndi burada əsas oyunçular Çin, Pakistan və Türkiyə olacaq və çox maraqlı bir vəziyyət yaranacaq. Çin çoxdan Əfqanıstana böyük maraq göstərir. Taliblərə silahların çoxu və digər formada dəstək əsasən Çindən gəlir. Ümumiyyətlə, əslində prosesləri idarə edənlər üçün Əfqanıstanda baş verənlər gözlənilməz olmadı...

> “
> *Qərbin Əfqanıstana xərclədiyi milyardlar, sadəcə, “yeyilib”...*
>
> *Pakistanın “Taliban” üzərində böyük nüfuzu var...*

***- Bəs ümumiyyətlə, ABŞ 2001-ci ildən bəri işğal müddətində Əfqanıstanda hansı iş gördü, özü və əfqan xalqı üçün nələrə nail oldu? Yoxsa elə hər gələn Prezident öz bildiyini etməklə kortəbii proseslər baş verdi?***

- Sovetlərin vaxtında öyrəşmişdik ki, hər ölkənin bir ideologiyası olmalıdır. SSRİ dağıldı və kommunist ideologiyasından azad olquq və yeni bir ideologiya gəldi - demokratiya. Bəlli oldu ki, bu ideologiyaların heç biri Əfqanıstana yaramır, həm də hər ölkə öz maraqlarını həyata keçirir. Hiss olunur ki, ABŞ üçün artıq bu bölgə maraq kəsb etmir, yəni dünyada digər fövqəlgüc formalaşıb. Bu da Çindir. Bu baxımdan o uzaqlıqdan bu qədər maliyyə vəsaiti sərf etmək bəlkə də ABŞ-ın maraqlarından kənar olan məsələdir. ABŞ Əfqanıstandakı əməliyyatlar üçün 2 trilyon dollara yaxın, Almaniya 300 milyard avrodan çox vəsait xərcləyib. Hamısını hesablasaq, qeyri-iradi düşünəcəyik ki, bu pullar necə oldu, haraya xərcləndi. Elə bir güclü ordu qurulmayıb, infrastruktur yaradılmayıb. Bəzi araşdırmaçılar deyir ki, həmin trilyonlar, milyardlar, sadəcə, “yeyilib”... Təki, heç olmasa, bundan sonra sülh olsun, insanlar, uşaqlar, qadınlar boş yerə həlak olmasın. Baxaq, görək nə iş görürlər...

***- Bilirik ki, Rusiya artıq onillərdir “Taliban”ı terrorçu bir təşkilat kimi tanıyır. Taliblərin Kabili də ələ keçirməsindən sonra belə versiyalar yayılır ki, onların arxasında elə Moskva dayanır...***

- Son günlər ortaya o qədər ziddiyyətli məlumatlar çıxır ki... Deyirlər, Rusiyanın guya taliblərlə əvvəlcədən əlaqəsi mövcud olub, Çin onların nümayəndələrini bu günlərdə qəbul edib. Bu yandan da yadımıza salırıq ki, “Taliban”ın əsas qərargahı indiyədək Qətərin paytaxtı Dohada olub. Nəzərə alsaq ki, ABŞ-ın Yaxın Şərqdə ən böyük hərbi bazası məhz Qətərdədir, taliblərin Amerika ilə sıx əlaqəsi olması anlaşılır. Yəni belə çıxır ki, əsas aparıcı dünya dövlətlərinin “Taliban”la müəyyən bağlılığı çoxdan mövcuddur... İran da deyəsən, bəyanat verib ki, taliblərin Əfqanıstanda guya amerikanları qovmaqla hakimiyyətə gəlişini alqışlayır... Bir daha deyirəm, Əfqanıstanda gedən proseslərin indiki sonluğu, ola bilsin, kənardan müşahidə edən bizlər üçün gözlənilməz oldu. Aparıcı siyasi oyunçular çoxdan buna hazır olublar. Ona görə də 300 minlik ordu birdən-birə çökdü... Belə alındı ki, Qərb modeli Əfqanıstan üçün işlək deyil və artıq heç kəs oraya boş-boşuna pul xərcləmək istəmədi...

***- Pakistanın Baş naziri İmran xan da bəyanat verdi ki, Əfqanıstan köləlikdən qurtuldu...***

- Burada təəccüblü heç nə yoxdur. “Taliban”ın əsasının qoyulduğu yer elə Pakistan olub...

***- Taliblərin gözlənilmədən hakimiyyətə gəlmə ssenarisinin ABŞ-ın gələcəkdə Pakistanı məhv etmək planının tərkib hissəsi olduğunu söyləyənlər də var...***

- Mən buna inanmıram... Ona görə ki, taliblərin əsas dayağı puştunlardır. Uzun müddət heç Pakistanla Əfqanıstan arasında sərhəd də yox idi. Arada Dürand xətti kimi tanınan bir bölgə olub ki, orada puştun qəbilələri sərbəst olaraq o tərəf-bu tərəfə gedirdilər. Odur ki, həm etnik, həm də təşkilati baxımdan “Taliban” Pakistanla bağlıdır. Bir daha xatırladıram ki, bu təşkilatın bünövrəsi hələ Sovetlərin Əfqanıstandakı müharibəsi zamanı ABŞ-ın dəstəyi ilə Pakistanda yaranıb. Əminəm ki, bu günədək həm ABŞ, həm Pakistanın əlində taliblərə təsir rıçaqları mövcuddur. Talibanın rəhbərliyinin əksər hissəsi də Pakistanla həmsərhəd Qəndəhardandır. Bu baxımdan bilməliyik ki, Pakistanın “Taliban” üzərində böyük nüfuzu var. Onu da unutmamalıyıq ki, Pakistan-Çin hərbi müttəfiqliyi də mövcuddur. Yəni belə nəticəyə gəlmək olur ki, bundan sonra Əfqanıstan məsələsində əsas söz sahibi Çinlə Pakistan olacaq...

***- Azərbaycan heç vaxt “Taliban”ı terrorçu təşkilat kimi tanımayıb. Bugünədək fəaliyyət göstərmiş Əfqanıstan hökuməti ilə də normal münasibətlərdə olub. Hətta bu ölkəyə yardımlar da edilib. Bəs bundan sonra taliblərin hakimiyyətdə qalacağı halda Azərbaycan hansı mövqeni tutmalıdır?***

- Bəli, Azərbaycan heç vaxt “Taliban”ı terrorçu təşkilat kimi tanımayıb. Dediyiniz kimi, bundanöncəki Əfqanıstan Hökuməti ilə Azərbaycan Hökuməti arasında hansısa proqramlar olub, onlara yardımlar edilib. Əslinə qalsa, biz bunu hansısa hökumətə yox, əfqan xalqına etmişik. Bu baxımdan orada söz sahiblərindən biri olacaq bizim ən yaxın qardaş, dost və müttəfiqlərimiz Türkiyə və Pakistanın da mövqeyini nəzərə almalıyıq. Odur ki, Azərbaycan üçün yeni şəraitdə Əfqanıstanla münasibətləri qurmaq üçün əsaslar pis deyil və həmin əlaqələr bu və ya digər şəkildə qurulacaq...

***- Yəni “Taliban” hökuməti ilə münasibət quranda hansısa aparıcı güclər Azərbaycanı qınamayacaq ki?***

- Təbii, çünki aparıcı dövlətlər - ABŞ, Rusiya, Çin və s. taliblər Kabuli ələ keçirməmişdən əvvəl onlarla əlaqə qurub. Maraqlısı odur ki, Rusiyada onillərlə “Taliban”ı rəsmən terrorçu təşkilat kimi tanıyıblar. Bugünədək də mətbuat üçün də belə bir qayda var ki, hər hansı bir xəbər, yaxud digər yazıda “Taliban” yazanda mütləq mötərizədə “Rusiya Federasiyasında qadağan olunmuş terrorçu təşkilat” yazılmalıdır... Jurnalistlər birdən-birə - 2018-ci ildə, sonra da 2019-cu ildə ayılıb gördülər ki, “Taliban” nümayəndəsi Moskvada xarici işlər nazirinin qarşısında oturub. Sonra da Lavrov bəyanat verdi ki, bu təşkilatı çox yaxşı tanıyırıq, həmişə əlaqəmiz olub.... Əlbəttə, bu, çox gülməli və qəribə oldu. Hər halda bu cür qəfil dönüş çox təəccüblüdür...

***- Bu, təhlükəli bir tendensiya yaratmır ki, planetin hər yerində dövlətləri tədricən terrorçu qruplaşmalar ələ keçirsin?***

- Düşünmürəm belə bir şey olsun. Bir var, hakimiyyətə gəlməmişdən öncə hansısa radikal bəyanatlar, şüarlar bəyan edilir... Hakimiyyətə gələndən sonra hər bir qrup istər-istəməz dövlətə xas addımlar atmalıdır. Ayrı yol yoxdur. İnanmıram ki, “Taliban”ın qapalı dövrü uzun çəkəcək. İstər-istəməz onlar xarici əlaqələr qurmalıdırlar, xarici ticarət olmalıdır. Digər ölkələrlə gediş-gəliş olmalıdır və dünyada qəbul olunmuş bir sıra qanunları qəbul etməlidirlər. Doğrudur, taliblərin dünyagörüşləri bizim üçün yumşaq desək, müasir görünmür. Amma bu, onların daxili işidir. Əgər onlar bu dünyagörüşlərini ixrac etmək istəməsələr, təbii ki, İran, Səudiyyə Ərəbistanı və s. şəriət rejimləri kimi onlarla da hansısa əlaqələr qurmaq olar...

***- Taliblərin Əfqanıstanda hökmran olması, deyəsən, həm də Rusiya üçün Orta Asiya ölkələrinə daha çox hərbi-siyasi təsir və təzyiq imkanları yaradacaq?***

- Əslinə qalsa, Rusiyanın indiki iqtisadi durumu üçün bu, böyük bir yük olacaq. Moskvanın maliyyə imkanları çatmır ki, öz ordusuna lazımi qədər pul xərcləsin. Bu məhdud imkanların bir hissəsini kiməsə verməkdən də Kreml üçün heç bir fayda hasil olmayacaq... İkincisi, hesab edirəm ki, Rusiya bundan sonra Əfqanıstan məsələsində bir az kənarda dayanmağa çalışacaq.

Ortada artıq formalaşmış oyunçular, yəni Özbəkistan, Türkmənistan, Tacikistan kimi dövlətlər var. Yəni bu baxımdan şübhə etmirəm ki, elə əsas yük Əfqanıstanla birbaşa qonşu olan bu ölkələrin üzərinə düşəcək... “Taliban” öz ideologiyasını hələlik xaricə ixrac etməkdən çəkinəcək. Öncə onlara daxildə birlik, sabitlik yaratmaq gərəkdir. Bu da heç də asan məsələ deyil. Ona görə ki, Əfqanıstanda müxtəlif millətlər: özbəklər, taciklər və b. var. Həmin xalqlar da puştunlarla neçə illərdir, demək olar ki, silahlı qarşıdurma vəziyyətindədirlər...

***- Əfqanıstanda son günlər baş verənlərin Amerikanın müsəlman ölkələrinə qarşı növbəti hiyləsi olduğunu hesab ednlər də var. Çeçenistan rəhbəri Ramzan Kadırov iyulun 16-da belə bir bəyanatla çıxış edib...***

- Deyəsən, vaxtilə Obamanın dövründə müsəlman ölkələrində başlayan məxməri inqilablar layihəsinin son hissəsini görürük. Aydın olur ki, qərbyönümlü demokratiyanın qələbəsi heç harada mümkün olmur. Misirdə, Liviyada və s. bunun real acı nəticələrini gördük... Əfqanıstanda son 20 ildə xərclənən vəsait, hərbi əməliyyatlar, siyasi gedişlər müqabilində Qərb modelinin baş tutmaması hər şeyi ortaya qoydu...

*✍ Sultan Laçın*

# Kiçik və orta sahibkarlığın inkişafı

## Layiha

***Azərbaycanda azad sahibkarlığın inkişafı, əlverişli biznes mühitinin yaradılması iqtisadi siyasətin başlıca prioritetidir. Dünyada baş verən son proseslər göstərdi ki, bu sahənin inkişafı istiqamətində həyata keçirilən məqsədyönlü siyasət öz bəhrəsini verməkdədir. Qeyd edək ki, sahibkarlığın inkişafı sahəsində həyata keçirilən sistemli tədbirlər nəticəsində 2020-ci ildə də nüfuzlu beynəlxalq qurumların reytinqlərində Azərbaycan iqtisadi göstəricilərinə görə ön sıralarda yer alıb. Dünya Bankının "Doing Business" hesabatında Azərbaycan 190 ölkə arasında 28-ci yerdə qərarlaşıb.***



**Ekspertlər hesab edirlər ki, Azərbaycanın daha sürətli tərəqqisinə nail olmaq üçün bu sahənin inkişafı başlıca hədəflərdən olmalıdır**

Eyni zamanda, Dünya Bankı tərəfindən Azərbaycan növbəti dəfə 10 ən islahatçı ölkə sırasına daxil edilib. Davos Ümumdünya İqtisadi Forumunun hesabatlarında da ölkəmiz bir sıra göstəricilər üzrə ən qabaqcıl yerlərdədir. Bundan əlavə Heritic Fondunun 2020-ci ilin nəticələrinə əsasən elan etdiyi İqtisadi Azadlıq İndeksinə görə Azərbaycan 38-ci pilləyə yüksəlib. Yəni, Azərbaycan biznes mühitinin əlverişliliyi, sahibkarların sərbəst, maneəsiz işləməsi üçün ən çox islahatlar aparan ölkələrdən biridir. Postneft iqtisadiyyatının qurulması, idxaldan asılılığın azaldılması, ölkənin ixrac potensialının yüksəldilməsi üçün rəqabət qabiliyyətli mal və məhsulların istehsal olunması məqsədilə hökumət sahibkarlar üçün böyük imkanlar yaradıb.

Ölkədə qeyri-neft sektorunun, xüsusilə də regionlarda kiçik və orta sahibkarlığın inkişafı istiqamətində mühüm işlər görülür. Təsadüfi deyil ki, koronavirus pandemiyasının təsirindən yaranmış dərin maliyyə böhranı bir sıra ölkələrdə iqtisadiyyatın tənəzzülə uğramasına və sosial gərginliyin artmasına gətirib çıxardığı bir vaxtda ölkəmiz qlobal böhranın təsirindən maksimum dərəcədə qoruna bilib, sosial-iqtisadi inkişaf, vətəndaşlarımızın rifah halının yüksəldilməsi tədbirləri ardıcıl davam etdirilib.

Statistik məlumatlara əsasən, məhz biznes mühitinin yaxşılaşdırılması və qeyri-neft sektorunda sahibkarlığın inkişaf etdirilməsi sahəsində görülən tədbirlərin nəticəsində son 17 ildə sahibkarlıq subyektlərinin sayı 4,2 dəfə, hüquqi şəxslərin sayı 2 dəfə, kiçik müəssisələrin sayı 2 dəfə, fərdi sahibkarların sayı 5 dəfə artıb.Biznes mühitinin yaxşılaşdırılması və qeyri-neft sektorunda sahibkarlığın inkişaf etdirilməsi sahəsində görülən tədbirlər nəticəsində 2004-2021-ci illərdə ölkəmizin qeyri-neft ixracı 4 dəfə çoxalıbr.

Müstəqillik qazandıqdan sonra ölkə iqtisadiyyatına 250 milyard dollar investisiya qoyulub. Həyata keçirilən məqsədyönlü siyasət və struktur islahatları sayəsində 2020-ci ildə ölkəmizdə makroiqtisadi sabitlik təmin edilib, iqtisadi artım prosesləri sürətlənib və iqtisadiyyatın dayanıqlı inkişafı yeni mərhələyə daxil olub.

Sahibkarlığın inkişafına dövlət dəstəyi göstərilməsi sayəsində Sahibkarlığın İnkişafı Fondu tərəfindən güzəştli kreditlərin verilməsi işləri də davam etdirilir. Bu prosesin dövlət büdcəsinə əlavə yük yaratmadan həyata keçirilməsi üçün kreditləşdirmədən geri qaytarılan vəsaitlərdən istifadə edilir. İqtisadiyyat

*Əgər biz sosialyönümlü siyasət yürüdürüksə, mütləq kiçik və orta sahibkarlığın daha da yüksəlməsinin qayğısına qalmalıyıq*



**Əli Əlirzayev,**
İqtisad Universitetinin professoru

Nazirliyi yanında Sahibkarlığın İnkişafı Fondu tərəfindən iqtisadiyyata güzəştli kredit dəstəyi çərçivəsində 2020-ci il ərzində 908 sahibkara 127 milyon manatadək güzəştli kredit verilib. Bu kreditlər hesabına 2700-dən çox yeni iş yerinin açılması imkanı yaranıb.Son illərdə Sahibkarlığın İnkişafı Fondu tərəfindən verilmiş güzəştli kreditlərin 72 faizi aqrar sektorun, 28 faizi sənaye və digər sahələrin inkişafına yönəldilib.

Bu kreditlərin 75 faizi regionların, 25 faizi Bakı qəsəbələrinin payına düşür. Digər tərəfdən, kənd təsərrüfatının subsidiyalaşdırılması və vergilərdən azad edilməsi, texnika və gübrələrin güzəştli şərtlərlə verilməsi, investisiyalar və ixracın təşviqi, digər dövlət dəstəyi mexanizmləri regional inkişafın sürətləndirilməsində mühüm rol oynayır. Bu inkişafın daha bir göstəricisi regionlar üzrə vergi daxilolmalarının artmasıdır. 2005-ci illə müqayisədə 2020-ci ildə regionların qeyri-neft sektoru üzrə ümumi vergi daxilolmalarının xüsusi çəkisi 2 dəfə artaraq 15 faizə çatıb. Əmək bazarının leqallaşması və yeni iş yerlərinin yaradılması hesabına ötən il məcburi dövlət sosial sığorta haqqı üzrə regionlardan daxilolmalar 28 faiz artıb, o cümlədən qeyri-dövlət sektorunda artım 50 faiz olub. İşsizlikdən sığorta haqqı üzrə regionların daxilolmaları 39 faiz, o cümlədən qeyri-dövlət bölməsində 70 faiz artıb.

Mütəxəssislər isə hesab edirlər ki, əldə edilmiş uğurların davamlılığının təmin olunması sahibkarlıq fəaliyyətinin tənzimlənməsi sisteminin təkmilləşdirilməsini, sahibkarlara, xüsusilə də kiçik və orta sahibkarlara göstərilən texniki, maliyyə, hüquqi, metodiki və s. xidmətlərin əhatə dairəsinin genişləndirilməsini, keyfiyyət səviyyəsinin daha da artırılmasını zəruri edir, bu sahədə institusional yanaşmanı şərtləndirir.

■ **Mövzu ilə bağlı bizimlə fikirlərini bölüşən İqtisad Universitetinin professoru Əli Əlirzayev bildirib ki, sahibkarlığa bazar iqtisadiyyatının ilkin şəraiti kimi baxmaq lazımdır:** "Bazar iqtisadiyyatı şəraitində onun tədqiqi və təşkili, planlı təsərrüfatdan fərqli olaraq, bazar iqtisadiyyatı qanunlarına uyğun həll olunur. Bazar iqtisadiyyatı və sahibkarlıq arasında üzvü əlaqə və qarşılıqlı münasibət, məhz sahibkarlığın təşkili formalarını meydana gətirir. Sahibkarlığa bazar iqtisadiyyatının ilkin şəraiti kimi baxmaq lazımdır. Bu şəraitin yaradılması formalaşmış iqtisadi sistemin xarakterindən, məzmunundan, iqtisadi sistemin məqsəd və perspektiv inkişafından asılı olaraq reallaşdırılır.

Sahibkarlaq və mülkiyyət münasibətləri arasında əlaqə, bir-birini tamamlama onun inkişafının və bazar münasibətlərinin yaranmasının ilkin şərtidir. Bununla əlaqədar olaraq sahibkarlığın forma, məzmun və təşkili xarakterinin, inkişaf qanunauyğunluqlarınn aşkar edilməsi iqtisadi inkişaf konsepsiyası baxımından mühüm əhəmiyyət kəsb edir. İqtisadi inkişafın əsas göstəricilərinin dinamik artımı sahibkarlığın inkişafı ilə əlaqədə təhlil olunduqa onun iqtisadi və sosial səmərəsi meydana çıxır. Bu yanaşma sahibkarlığın təşkilati struktur kimi mahiyyətini təhlil etməyə sövq edir.

Ona görə də sahibkarlığa iqtisadi artım baxımından rəqabət qabiliyyətli təsərrüfatçılıq və əhalinin işlə təmin olunması məqsədilə təşkil olunan fəaliyyət kimi yanaşma vacidbir. Bazar iqtisadiyyatının təşkili maddi nemətlərin bolluğu və ölkənin iqtisadi təhlükəsizlik konsepsiyası baxımından sahibkarlığın tənzimlənməsini də zəruri edir. İqtisadi ədəbiyyatlarda sahibkarlığın mahiyyətinə, onun təşkili formalarına, tənzimləmə istiqamətlərinə baxmaq, ilk növbədə, sahibkarlığın mahiyyətinə yanaşma ilə səciyyələnir. Yəni, sistemin necə formalaşdığı sahibkarlığın mahiyyətinə necə yanaşılmasından asılıdır".

Professor vurğulayıb ki, Azərbaycanın daha sürətli tərəqqisinə nail olmaq üçün iqtisadi ekosistemdə kiçik və orta sahibkarlığın inkişafı əsas hədəflərdən olmalıdır: "Ümumiyyətlə, ölkənin iqtisadi inkişafının əsas istiqaməti və konsepsiyası kiçik və orta sahibkarlığın inkişafına yönəldilməlidir və yönəlir.

Çünki kiçik və orta sahibkarlığın inkişafı fonunda həm məşğuluq təmin olunur, bazara çıxan mal-məhsulların miqdarı artır, xidmət sahəsi genişlənir. Ona görə də məhz kiçik və orta sahibkarlığın daha dinamik inkişafına təkan verməliyik. Əmək resursları və ehtiyatlarının daha çox olduğu Azərbaycan kimi ölkədə kiçik və orta sahibkarlıq böyük müəssisə yaratmadaq və böyük kapitalın olmasına ehtiyac olmadan sahibkarın öz vəsaiti hesabına daha böyük nəticələr əldə etməyə imkan verir. Məhz bu sahələrin inkişafı Azərbaycanda kimi ölkədə sosial inkişafın daha da yüksəlməsində əsas amillərdən, istiqamətlərdən biridir. Təbii ki, sosialyönümlü siyasət yürüdən Azərbaycanda kiçik və orta sahibkarlığın gücünün daha da artması birmənalı olaraq labüddür. Əgər biz sosialyönümlü siyasət yürüdürüksə, mütləq kiçik və orta sahibkarlığın daha da yüksəlməsinin qayğısına qalmalıyıq. Elə bir şərait yaradılmalıdır ki, ölkədə istehsal edilən məhsulun azı 70 faizi məhz kiçik və orta sahibkarlıq hesabına əldə edilsin".

✍ ***Sevinc***

*Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi əsasında hazırlanıb.*

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi

# Bu il 700 bal toplayan niyə olmadı?

## Sorğu

***Məlum olduğu kimi, ali məktəblərə qəbul imtahanları başa çatıb. Dövlət İmtahan Mərkəzinin açıqladığı məlumata əsasən, 2021-ci ildə Azərbaycanda keçirilən ali məktəbə qəbul imtahanlarında abituriyentlərdən heç biri 700 bal toplaya bilməyib. Bu isə cəmiyyətdə geniş müzakirələrə səbəb olub.***



Bəziləri abituriyertlərdən heç birinin 700 bal toplaya bilməməsini təhsilin keyfiyyətinin aşağı düşməsi, digərləri isə imtahan suallarının çətinliyi ilə əlaqələndirirlər. Maraqlıdır, görəsən, Dövlət İmtahan Mərkəzində bu barədə nə düşünürlər? Abituriyentlərdən heç birinin 700 bal nəticə göstərməməsini nə ilə izah edirlər?

■ **Məsələ ilə bağlı hafta.az-a açıqlama verən Dövlət İmtahan Mərkəzinin şöbə müdiri Xanlar Xanlarzadə bildirib ki, imtahanlarda yüksək bal toplayanlar daima cəmiyyətin diqqət mərkəzində olur:** "Bilirsiniz ki, imtahanlar iki mərhələli keçirilir. İmtahanların birinci mərhələsi cari ilin məzunları üçün buraxılış imtahanı, ikinci mərhələ isə ixtisas qrupları üzrə olan imtahanlardır. İmtahanlarda maksimal olaraq 700 bal toplamaq mümkündür. Yüksək bal toplayanlar daima cəmiyyətin diqqət mərkəzində olur ki, bu da başadüşüləndir. İmtahanların birinci mərhələsində abituriyentlər maksimum 300, ikinci mərhələsindən isə 400 bal toplaya bilirlər. Bu imtahanlarda da kifayət qədər yüksək bal toplayan abituriyentlər var. Məsələn, I ixtisas qrupu üzrə 11 nəfər var ki, onlar maksimal, yəni 400 bal toplayıblar. II ixtisas qrupunda 2 nəfər, IVixtisas qrupunda da 2 nəfər 400 bal toplayıb. Əgər biz hər iki mərhələnin nəticəsinə baxsaq, burda da kifayət qədər yüksək ballar toplanılıb. I ixtisas qrupunda 697,1 bal ən yüksək göstəricidir. Bu qrupda 695,5 bal toplayan məzun da var. Digər qruplarda da yüksək nəticə göstərən abituriyentlər olub. Bu ballar 700 ballıq nəticə kimi qiymətləndirilməlidir. Kimsə iddia edə bilməz ki, məsələn, 690-700 bal toplayan məzun arasında hər hansı bir fərq var. Qeyd etdiyimiz ballar da 700 bala bərabər tutula bilər".

Qurum rəsmisi xatırladıb ki, 1992-ci ildən bəri tətbiq olunan test üsulu ilə tələbə qəbulunun tarixində ilk dəfə 700 bal 2007-ci ildən toplanılıb: "Yəni, 15 ildən sonra maksimal bal toplanıb. Onların da sayı cəmi 3 nəfər olub. Daha sonra isə 2008-ci ildə 6 nəfər, 2009-cu ildə 2 nəfər, 2010-cu ildə 7 nəfər, 2011-ci ildə 4 nəfər maksimal bal toplaya bilib. Bu illərə görə statistika dəyişib. 2017-ci ildə 15, 2018-ci ildə 29 nəfər olmuşdu. Bunun da əsas səbəbi ondan ibarət idi ki, son illər biz qəbul imtahanlarının ikinci mərhələsini iki dəfə keçirirdik. Yəni, abituriyentlərə ikinci şans vermişdik. Ona görə də onların imtahanlarda maksimal nəticə göstərmək imkanları olurdu. 2019-cu ildə qəbul qaydalarında dəyişiklik edildi və imtahan iki mərhələli oldu. Buraxılış imtahanlarının nəticələri də nəzərə alınmağa başlanıldı. Test tapşırıqlarının formalarında da dəyişiklik edildi. Həmin il abituriyentlərə yeni qaydalara alışmaq üçün müəyyən vaxt lazım olduğundan 700 bal toplayan olmadı. 2020-ci ildə amma 2 nəfər maksimal bal toplamışdı. Bir daha qeyd edirəm ki, bu il düzdür, maksimal nəticə göstərən yoxdur, amma maksimala yaxın nəticələr var. Ümumiyyətlə, bu məsələ imtahanın səviyyəsi, abituriyentlərin səviyyəsi haqqında hər hansı fikir yürütmək üçün əsas ola bilməz.

*Ümumiyyətlə, bu məsələ imtahanın səviyyəsi, abituriyentlərin səviyyəsi haqqında hər hansı fikir yürütmək üçün əsas ola bilməz*

Daha ciddi araşdırma aparılmalıdır. Dövlət İmtahan Mərkəzi tərəfindən yaxın günlərdə abituriyentlərin imtahanlarda topladıqları ballar, bal intervallarına uyğun olaraq sıralaması ictimaiyyətə təqdim olunacaq. O zaman daha dərin təhlil, daha dərin müqayisə aparmaq olar. Amma ümumi praktikaya əsasən deyə bilərəm ki, imtahanlar arasında elə ciddi fərq olmur. Abituriyentlərin nəticələri də təxminən bir-birinə yaxın olur. Ola bilsin ki, hər hansı ixtisas qrupunda nəticələr bu il yüksək və ya aşağı olsun. Bunlar dəyişəndir".

✍ ***Sevinc***

## XƏBƏRİNİZ OLSUN...



■ Dövlət Sərhəd Xidməti rəisinin iki müavini ehtiyata buraxılıb. Hafta.az-ın DSX-ya istinadən verdiyi məlumata görə, DSX rəisinin Silahlı Qüvvələrin ehtiyatına buraxılmış sabiq müavinləri - general-leytenant Azad Ələkbərov və general-leytenant İsmayıl Əkbərov Azərbaycan Sərhəd Mühafizəsinin 102-ci ildönümü münasibətilə keçirilən təntənəli mərasimdə Dövlət Sərhəd Xidmətinin döyüş bayrağı ilə vidalaşıblar.

■ "Sassuolo"nun yarımmüdafiəçisi Manuel Lokatellinin "Yuventus"a transferi, nəhayət ki, baş tutub. İtaliya millisinin üzvü keçidi tamamlamaq üçün Turinə yollanıb. "Qoca sinyora"nın mətbuat xidməti 23 yaşlı oyunçunun tibbi müayinədən keçməsi ilə bağlı video paylaşıb. "Yuve" gün ərzində transferi açıqlamağı planlaşdırır. Lokatelli yeni komandası ilə 5 illik müqavilə imzalayıb. Bu keçid "Sassuolo"ya 35 milyon avro qazandıracaq.

■ 2021-ci ilin yanvar-iyul aylarında Azərbaycan 7 982,2 mln. ədəd papiros və siqaretlər və 800,4 ton fermentləşdirilmiş tütün istehsal edib. Ötən ilin analoji dövrü ilə müqayisədə ölkədə papiros və siqaretlərin istehsalı 2 dəfə artıb, fermentləşdirilmiş tütünün istehsalı isə kəskin dərəcədə - 3,5 dəfə azalıb.



■ Azərbaycanın Serbiya, Monteneqro, Bosniya və Herseqovinadakı sabiq fövqəladə və səlahiyyətli səfiri olmuş Eldar Həsənovun cinayət işi üzrə məhkəmənin vaxtı məlum olub. Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Əfqan Hacıyevin sədrliyi ilə keçiriləcək məhkəmənin hazırlıq iclası avqustun 27-nə təyin edilib.

■ Gürcüstanda son sutka ərzində yeni növ koronavirusa 5 914 yoluxma halı qeydə alınıb, 49 nəfər ölüb. Bu barədə Gürcüstan Xəstəliklərə Nəzarət və İctimai Sağlamlıq Milli Mərkəzinin məlumatında bildirilir Bununla da qonşu ölkədə koronavirusa yoluxanların sayı 496 376, ölənlərin sayı isə 6 432 nəfərə çatıb. Virusa yoluxanlardan 432 506 nəfərin (87%) sağaldığı bildirilir.



■ İlkin məlumatlara görə, 2021-ci ilin yanvar-iyul aylarında ölkə əhalisinin nominal gəlirləri 32 milyard 321 milyon manat və ya hər nəfərə orta hesabla 3 milyard 228,4 manat təşkil edib. Dövlət Statistika Komitəsindən hafta.az-a bildirilib ki, bütün icbari və könüllü ödənişlər edildikdən sonra əhalinin sərəncamında 29 milyard 20 milyon manatlıq vəsait qalıb.

■ Cari ilin yanvar-iyul aylarında Azərbaycan ən çox İtaliyaya məhsul ixrac edib. Yeddi ayda ixracda əsas ölkələrin siyahısında ilk sırada İtaliya olmaqla, Türkiyə və İspaniya qərarlaşıb. İtaliyaya ixrac 4 milyard 357,3 milyon ABŞ dolları, Türkiyəyə 1 milyard 539 milyon dollar, İspaniyaya isə 514,4 milyon dollar dəyərindədir. Azərbaycanla ticarət dövriyyəsində əsas ölkələrin siyahısında isə ilk üçlükdə İtaliya, Türkiyə və Rusiya dayanır. İtaliya ilə ticarət dövriyyəsi 4 milyard 618,9 milyon dollar, Türkiyə ilə 2 milyard 501,9 milyon dollar, Rusiya ilə 1 milyard 549,4 milyon dollar təşkil edib.

## PREZİDENTİN İŞ GÜNÜ



**Prezident İlham Əliyev Bakı şəhərinin Nizami rayonu ərazisində avtomobil yollarının yenidən qurulması işlərinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında sərəncam imzalayıb.**

Sərəncamda qeyd edilir ki, Bakı şəhərinin Nizami rayonu ərazisində avtomobil yollarının yenidən qurulması işlərinin davam etdirilməsi məqsədilə "Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.1.14-cü yarımbəndində göstərilmiş məbləğin 1,6 milyon manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın. Maliyyə Nazirliyinə tapşırılır ki, sərəncamda göstərilən məbləğdə maliyyələşməni təmin etsin. Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll edəcək.

***

**Prezident İlham Əliyev Aslan Əhməd oğlu Aslanovun 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb. A. Aslanov mətbuat sahəsində uzunmüddətli səmərəli fəaliyyətinə görə təltif edilib.**

## Müdafiə naziri Türkiyənin Baş Qərargah rəisi ilə görüşüb



**"IDEF - 2021" Beynəlxalq Müdafiə Sərgisində iştirak etmək məqsədilə İstanbul şəhərində səfərdə olan Müdafiə naziri general-polkovnik Zakir Həsənov Türkiyənin Baş Qərargah rəisi ordu generalı Yaşar Gülerlə görüşüb.** Müdafiə Nazirliyindən hafta.az-a verilən məlumata görə, görüşdə iki ölkə arasında hərbi-texniki əməkdaşlığın inkişaf perspektivləri və qarşılıqlı maraq doğuran digər məsələlər barədə fikir mübadiləsi aparılıb.

## 290 düşmən hədəfini məhv edən PUA-lar



**Dövlət Sərhəd Xidmətinin (DSX) "Harop", "Quzğun" pilotsuz uçuş aparatlarının peşəkar tətbiqi nəticəsində düşmənin strateji əhəmiyyətli hədəfləri, o cümlədən "Toçka-U", "Elbrus" (SKAD) operativ-taktiki raket kompleksləri, "S-300", "KRUQ", "OSA" "KUB", "TOR" zenit-raket kompleksləri, radio elektron-mübarizə stansiyaları, tankları, zirehli döyüş maşınları və digər texnikası, komanda idarəetmə məntəqələrinin məhv edildiyi, ümumilikdə 290 düşmən hədəfinin, çoxsaylı canlı qüvvəsinin zərərsizləşdirildiyi qeyd edilib.**

Bu barədə DSX-nin aparatında Azərbaycan Sərhəd Müha□fizə□si□nin 102-ci ildönümü münasibətilə keçirilən mərasimdə deyilib.

Tədbirdə Azərbaycan sərhədçilərinin 44 günlük haqq savaşında döyüş tapşırıqlarını uğurla yerinə yetirmələri, Vətən müharibəsinin ilk günündən Füzuli rayonu ərazisindəki təmas xəttindən Ermənistanla dövlət sərhədinədək böyük bir ərazini azad etmələri, 24 saat ərzində 105 kilometr məsafədə ildırımsürətli hücumla düş□mənə sarsıdıcı zərbələr endirmələri, Qədim Xudafərin körpüsündə, Zəngilan rayonunun Ağbənd qəsəbəsində və Zəngilan şəhərində dövlət bayrağımızı sancmaları, Ermənistanla dövlət sərhə□dində strateji yüksəklikləri azad etmələri, Füzuli, Cəbrayıl, Zəngilan və Qubadlı rayonlarının, Hadrut qəsəbəsinin və Şuşa şəhərinin, Ermənistanla dövlət sərhədində strateji yüksəkliklərin azad olunmasında Azərbaycan sərhədçilərinin qəhrəmanlığı və igidlik nümu□nələri göstərmələri qeyd olunub.

# QAYIDIŞA HAZIRLIQ

## Gündəm

## Prezidentin Kəlbəcər, Laçın səfəri

***Prezident İham Əliyevin Laçın və Kəlbəcər rayonlarına səfəri Azərbaycanın Ermənistan üzərində hərbi qələbəsi və işğaldan azad olunmuş ərazilərimizə böyük qayıdış kontekstində maraqla izlənilir, təhlil olunur. Maraqlıdır, bu gün ölkəmizin II Qarabağ savaşından sonra əldə etmiş olduğu uğurlu nəticələr regionun gələcək inkişafında hansı perspektivləri açır?***



**■ Milli Məclisin deputatı Asim Mollazadə hafta.az-a açıqlamasında bildirib ki, Azərbaycan Prezidentinin Kəlbəcərə, Laçına səfəri Böyük Qayıdış planının həyata keçirilməsinə nəzarətlə bağlıdır.**

Onun sözlərinə görə, Prezident bu istiqamətdə bir sıra açılışlar etməklə yanaşı, bölgənin problemləri ilə tanış oldu və Azərbaycan xalqının iradəsini ifadə edərək məhz Qarabağa qayıdışla Azərbaycanın bölgədə sülh və stabilliyi yaratmağa hazır olduğunu bir daha bəyan etdi. "Azərbaycanlılar Qarabağın bütün bölgələrinə qayıdırlar. Bunun üçün bütün zəruri işlər həyata keçirilir və bu prosesin qarşısını heç kim ala bilməyəcək".

Asim Mollazadə hesab edir ki, Prezidentin çıxışlarında diqqətçəkən bu məqamlar dünyaya verilən əsas mesajlardan biridir. Onun fikrincə, Prezidentin bundan əvvəl CNN Türk kanalına verdiyi müsahibədə bölgənin inkişafı üçün atılan addımların yol xəritəsi nümayiş etdirilib.

Orada bölgəni sakit, əməkdaşlıq regionuna çevirmək üçün nələrin edilməsi proqramı ortaya qoyuldu. "Təxribat törətmək istəyən qüvvələr bir daha eşitdilər ki, Azərbaycanın Dəmir Yumruğu yerindədir.




> *Prezidentin simasında bir daha hər kəsə bəyan elədik ki, hər şeydən xəbərimiz var*

Azərbaycan xalqının qələbə əzminin qarşısını heç kəs ala bilməyəcək. Kəlbəcərə, Laçına səfər Azərbaycanın ümumi mənzərəsi ilə bağlı görülələcək yeni quruculuq işləri - elektrik, su təchizatı, digər kommunikasiya xətlərinin çəkilişi və sair istiqamətdə aparılan işlərə dünyanın diqqətini bir daha yönəltmiş oldu. Bu bölgədə də ermənilərin törətdiyi vandalizm nəticəsində hər şey məhv edilib, yandırılıb. Bir daha bəyan edildi ki, Azərbaycan xalqı quruculuğa, bərpaya köklənib. Azərbaycan xalqı tək özünün müdafiəsi üçün deyil, yeni dünya qurmağa çalışır.

Prezidentin Kəlbəcərə, Laçına səfəri zamanı bu istiqamətdə görülən işlərin dünyaya nümayiş etdirilməsinin məqsədlərindən biri də ondan ibarət idi ki, biz sülh, əməkdaşlıq və əminamanlıq istəyirik". A.Mollazadə hesab edir ki, Prezidentin Kəlbəcərə, Laçına və ondan əvvəl də CNN Türk-ə verdiyi müsahibədə mesaj bundan ibarət idi ki, Azərbaycan Dövləti hər şeyi nəzarətdə saxlayır.

"Prezidentin simasında bir daha hər kəsə bəyan etdik ki, hər şeydən xəbərimiz var. Hansısa xoşagəlməz hərəkətləri, hətta xırda təxribatları da nəzarətdə saxlayaraq, eyni zamanda, Azərbaycan Dövləti Qarabağa qayıdışla, qurtuluşla yanaşı, Azərbaycan Silahlı Qüvvələrinin ən müasir hərbi texnika ilə təchiz olunması istiqamətində tədbirlərini həyata keçirir. Azərbaycan qardaş Türkiyə ilə öz Silahlı Qüvvələri ilə birlikdə dünyanın ən müasir standartlara cavab verməsi üçün işlər görür.

Mənə elə gəlir ki, bu, çox ciddi bir siqnaldır ki, Azərbaycan və onun müttəfiqləri onun Silahlı Qüvvələrinin qarşısında heç kəs dura bilməyəcək. Hesab edirəm, bizim bulvardakı Hərbi Qənimətlər Parkı da hamının gözü önündə olmalıdır ki, bəzi qüvvələr nə qədər oyun oynasa da, bilsinlər: ermənilərə verdikləri yeni silahların aqibəti də həmin Parkdakı silahların aqibətini yaşayacaq".

✍ *Tahirə Qafarlı*

## Təəssürat

# "Prezidentlə görüşümüz gözlənilməz oldu"

***Xəbər verdiyimiz kimi, Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva Kəlbəcər və Laçın rayonlarına səfər ediblər. Səfər zamanı ölkə Prezidenti və xanımı təsərrüfatını işğaldan azad olunmuş Kəlbəcər rayonuna köçürən arıçılarla görüşüb, onların vəziyyəti ilə maraqlanıblar. Prezidentlə görüşən arıçı Sabir Mustafayev təəssüratlarını hafta.az-la bölüşüb.***

> *Əgər hər hansı bir xoşagəlməz hal olmasa, köçürülmə davam edəcək. Bu məsələ bir az da arıçılardan asılıdır*



**Sabir Mustafayev,**
fermer

***- Sabir müəllim, Prezidentin gələcəyindən xəbərdar idinizmi? Ölkə başçısının gəlişini necə qarşıladınız? Görüş təəssüratlarınız nədən ibarətdir?***

- Sizə deyim ki, Prezidentlə görüşü gözləmirdik. Tamamilə təsadüf oldu. Biz yemək bişirirdik. Bir də gördük, Prezidentin korteji keçdi. Kortej xeyli irəliləmişdi ki, maşınlardan biri saxladı və Prezident maşından düşüb bizə tərəf gəldi. Heç bir mühafizəsi, qoruması yox idi. Ölkə Prezidentini qarşımızda görəndə şoka düşdük.

Hətta mən ona arılardan qorunmaq üçün xüsusi papaq təklif etdim. O isə zarafatla bildirdi ki, lazım deyil, arılar bilir gələn kimdir. Biz Prezidentlə xeyli söhbət etdik. Kəlbəcər balı barədə məlumat verdim və ixrac imkanlarımızdan söhbət açdım. Bildirdim ki, ölkədə bala olan tələbat, təxminən, 5 min tondur, bu il artıq arıçılar 7 min ton bal əldə ediblər. Prezident Kəlbəcər balının hələ sovet dövründə şöhrəti barədə məlumatlı olduğunu bildirdi və Azərbaycan balının ixrac imkanlarının artırılması üçün müvafiq göstərişlər verdi. Mehriban xanım Əliyevaya təşəkkür etdim. Kəlbəcərə arı təsərrüfatımın köçürülməsi barədə Mehriban xanıma müraciət etmişdim.

Onlar bu məsələyə çox həssas yanaşdılar və bizə imkan yaratdılar ki, təsərrüfatımızı Kəlbəcərə köçürək. Problem və hansısa çətinliyimizin olub-olmamasını soruşdular. Biz də bildirdik ki, hər şey qaydasındadır. Bundan sonra əsas hədəfimiz Kəlbəcər balının şöhrətini yenidən özünə qaytarmaq olacaq.



***- Siz əslən Kəlbəcərdənsinizmi?***

- Bəli. Mənim arıxanam 30 il bundan əvvəl Kəlbəcərdən çıxmışdı. İndi iki aydır ki, dədə-baba torpaqlarımıza qayıtmışıq, bundan böyük xoşbəxtlik ola bilməz.Tək biz yox, arılar da öz yurduna qayıdıb. Çox sevincliyik.

Bizim üçün bu şəraiti yaratdığına görə bir daha dövlətimizin başçısına və Mehriban xanım Əliyevaya təşəkkür edirik.

İnşAllah, bütün arıçılar bura gələr. Kəlbəcər arıçılıq üçün çox əlverişli yerdir. Ermənilər Kəlbəcər balını Fransaya ixrac edirdi. Bundan sonra bizim ixrac potensialımızı artıracaq arıxanalar gəlib burada yerləşəcəklər.

***- Hazırda Kəlbəcərdə neçə arı təsərrüfatı var?***

- İyunun 2-dən buradayıq. Pilot olaraq 5 təsərrüfat köçürülmüşdü, sonra da yavaş-yavaş artırıldı. İndi səhv etmirəmsə, 20-dən çoxdur.

Əgər hər hansı bir xoşagəlməz hal olmasa, köçürülmə davam edəcək. Bu məsələ bir az da arıçılardan asılıdır. Gərək hərbçilərin, aidiyyəti şəxslərin təlimatlarına qulaq assınlar ki, hansısa xoşagəlməz hal olmasın.

Biz təzə köçəndə bəzi hallar oldu, cüyür, balıq ovladılar. Bu barədə mətbuatda da məlumat yayıldı. Belə hallara yol vermək olmaz. Biz bura köçməmişdən əvvəl bilirdik ki, riskli əraziyə gəlirik, diversiyaya cəhd ola bilər, mina ola bilər və s. Bununla bağlı təlimlərdə olduq və çox şükür ki, indiyədək hər hansı ciddi təhlükə ilə üzləşməmişik.

***- Yəqin ki, təsərrüfatınızı getdikcə genişləndirəcəksiniz?***

- Bəli, genişləndirəcəyik. Tək Kəlbəcər yox, ümumiyyətlə, işğaldan azad olunmuş torpaqlar arıçılıq üçün böyük yem bazasıdır. Ermənilərin böyük təsərrüfatları var idi burada və ixracla məşğul idilər.

***- Məhsuldarlıq necədir? Kəlbəcər yaylaqlarına köçməniz məhsuldarlığa təsir göstəribmi?***

- Həm keyfiyyət, həm də kəmiyyət baxımından çox yüksək nəticələr əldə etmişik. Prezident gələndə ikinci bal süzümü aparılırdı.

Biz pətəkbaşına 30 kiloqram məhsul götürməyi hədəfləyirdik. Amma pətəkbaşına gözlədiyimizdən də yüksək məhsul əldə etmişik. Demək olar ki, hər pətəkdən 40-45 kiloqram bal süzdük. Mən bu nəticəni sonuncu dəfə 1992-ci ildə əldə etmişdim.

***- Qış fəslini orada qalacaqsınız?***

- İndi biz Dəlidağın ətəyindəyik. Dəniz səviyyəsindən 2225 metr yüksəkdəyik. Təbii ki, qış fəslində burada hərəkət etmək çətinləşir, qar uçqunları baş verir. Amma bu ərazilərdə arıxananı qışlamaya qoymaq çox faydalıdır. Ona görə də arıxananın bir hissəsini burada qışlamaya qoyacağam, qalan hissəsini isə arana köçürəcəyəm.

✍ *Sevinc*

HƏFTƏ İÇİ
MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

Təsisçi və baş redaktor:
Sevinc Seyidova

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb (lisenziya 022303). "Həftə içi"nin kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində çap olunur.
Müəllifin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.
Qəzet çərşənbə axşamı, cümə axşamı və şənbə günləri nəşr edilir.

Qəzet 22 iyul 1998-ci ildən çıxır. Tiraj -2000

"Həftə içi" nəşriyyat MMC, VÖEN 1600386721, "KAPITALBANK" ASC
1 saylı Səbail filialı Kod: 200059 VÖEN: 9900003611
M/h: AZ37NABZ01350100000000001944
S.W.İ.F.T.Bik AİİBAZ 2X

Ünvan:
Azərbaycan, Bakı şəhəri, H.Zərdabi, 71A mənzil -10
Tel.: - 433-27-63.
E-mail: hafta-ici@rambler.ru,
web-sayt: www.hafta.az

Müsahib

# Zəngəzur vaxtilə bütöv olub

**_Azərbaycanımız Ali Baş Komandanın iradəsi, qətiyyəti və rəşadətli ordumuzun gücü ilə son 30 ildə işğal altında qalan tarixi Qarabağ torpaqlarımızı vandal ermənilərin əsarətindən azad etdi. Bu gün Azərbaycan dövləti, xalqı özünün tarixi torpaqlarının müqəddəratı, millətinin öz dədə-baba torpaqlarına qayıdışı haqqında düşünür və o, Böyük Qayıdış üçün gələcəyinə məhz Zəngəzur dəhlizindən baxır... Bu istiqamətdə hafta.az-a müsahibə verən tarixçi alim Firdovsiyə Əhmədovanın araşdırmaları əsasında "Zəngəzur Dəhlizindən Tariximizə baxış" edəcək, bizi o torpaqlara çəkən milli-mənəvi, tarixi dəyərləri, bağlılığı unutqan dünyaya bir daha çatdıracağıq..._**



**Firdovsiyə Əhmədova,**
tarixçi alim

**_- Firdovsiyə xanım, bu gün belə bir fikir tez-tez önə çəkilir - "Azərbaycanın çoxəsrlik tarixində buna bənzər qələbə olmayıb". Tarixə ekskursiya etsək, son əsrlər torpaqlarını itirə-itirə gələn Azərbaycan üçün, bir müsəlman dövləti üçün bu zəfər hansı dönüş nöqtəsi oldu. Nələrdən keçdik?_**

- 44 gün ərzində Azərbaycan torpaqlarının işğaldan azad olunması bu xalqın mübarizlik əzminin, torpaq itkisi ilə barışmayaraq əldə etdiyi dünya hərb tarixinə yazılacaq çox mühüm qələbəsidir, zəfərdir. Son iki əsr ərzində Azərbaycan torpaqları davamlı olaraq işğala, təcavüzə məruz qalıb. Bu gün Azərbaycan xalqının ərazi itkiləri ilə bağlı yaşadığı soyqırım, faciələr vaxtilə onun torpaqlarının bir imperiya tərəfindən işğal olunmasından başlayır. Demək olmaz ki, 19-cu yüz ildə Azərbaycan xalqı rahatlıqla bu işğalla barışıb. Həmin İrəvan torpaqları əzəli Azərbaycan torpaqları idi və o torpaqlarda sonradan bir erməni dövləti yaradılıb. Həmin torpaqlarda 19-cu yüz ilin ortalarında gedən savaş nəticəsində ən son işğal olunan xanlıqlar İrəvan və Naxçıvan oldu. Sonrakı dövrlərdə Azərbaycan xalqının bu istilaya qarşı üsyanları oldu. Amma 20-ci əsrin əvvəllərində elə bir vəziyyət yarandı ki, artıq Azərbaycanda milli hərəkat formalaşdı. Bu, Azərbaycan milli məfkurəsi, Azərbaycan Cumhuriyyəti adlanan bir milli dövlətin dünya siyasi xəritəsinə daxil olması ilə nəticələndi. Amma Cumhuriyyət dönəminə çar Rusiyasının qoyduğu ağır bir miras qalmışdı. Cənubi Qafqazın 150 min kvadrat kilometr ərazisində Azərbaycan əhalisi, Cənubi Qafqaz müsəlmanlarının əksəriyyətini Azərbaycan türkləri təşkil edirdi. Amma nə baş verdi. Müstəmləkəçilik siyasəti nəticəsində əzəli əhalinin yaşadığı ərazilər elə bir inzibati ərazi vahidləri arasında böldülər ki, bunlar yerli əhalinin - azərbaycanlıların rəhbər olduqları inzibati vahidlər deyildilər. Cumhuriyyət yarananda hansı əraziləri ki, milli respublikanın tərkibində görmək nəzərdə tutulmuşdu, ondan az ərazilərdə bizim respublikamız qurula bildi. Eyni zamanda İrəvan quberniyasının bir hissəsində də erməni dövləti yaradılmış oldu. Azərbaycan hakimiyyəti baxmayaraq ki, yeni formalaşırdı, baxmayaraq ki, maliyyə baxımından çətinliyi var idi, həmin dövrdə ilk olaraq paytaxtı olan Bakı uğrunda qardaş Osmanlı dövlətinin hərbçiləri ilə birlikdə mübarizə apardılar. Bakı 1918-ci il sentyabrın 15-də azad olundu və Qafqaz İslam Ordusunun bir Qarabağ hərəkatı başlandı. Həmin dövrdə də ermənilər Qarabağ, Zəngəzur, Azərbaycanın bir sıra əraziləri ilə bağlı iddialarını davam etdirirdilər, təcavüzkar siyasət yürüdürdülər. Və xüsusən də Zəngəzur ərazisində Qarabağda Andranik, Njde, Dronun başçılıq etdiyi quldur dəstələri amansız qətliamlar törətmişdilər. Azərbaycan milli hökuməti təbii ki, diplomatik yolla mübarizəsini aparırdı. Amma 20-ci ilin yazında ermənilər çox geniş planla Qarabağ qiyamı təşkil eləmişdilər. Həmin dövrdə Azərbaycan ərazisində real qüvvə yox idi. Ona görə də 1920-ci ilin yazında Azərbaycanın gənc ordusu heç bir xarici qüvvənin köməyi olmadan, qısa müddətdə Qarabağda hakimiyyəti bərqərar edə biləcək uğurlu bir əməliyyat keçirdi.

**_- Ermənilərin yerlə yeksan etdiyi Azərbaycanın şəhər və kəndləri, dağıdılmış qəbirlər, məscidlər "ermənilərin qədim tarixə və mədəniyyətə malik olması, Qafqazda mədəniyyət ocağı olması" ilə bağlı mifləri necə dağıtdı?_**

- Ermənilər həmişə özlərini svilizasiyanın yaradıcıları, nümayəndələri kimi təqdim etməyə çalışırlar. Amma müasir, şüurlu bir insan bu gün Azərbaycan ərazilərində ermənilərin törətdikləri vəhşiliklərə baxanda onların hansı səviyyədə "mədəni xalqın" nümayəndələri olduğunu görür. Hansı mədəni xalqın nümayəndəsi bu vəhşiliyi edə bilər. İstər təbiətə, istər insanlara qarşı törədilən, insanlığa sığmayan qətliamı heç bir bəşər övladı eləməz ki, biz bunu qonşularımızdan gördük. Bu, 100 il əvvəl də belə idi, indi də belədir. 1918-ci ilin yazında Şərqi Anadoluda, Cənubi Azərbaycanda, Cənubi Qafqazda müsəlmanlara qarşı ermənilərin törətdiyi soyqırımlar, 100 il sonra Xocalı və yaxud da 44 günlük savaş dövründə və savaşdan sonra törətdikləri vəhşiliyə baxaraq görürük ki, heç nə dəyişməyib. Eyni ssenari, eyni hiyləgərlik, eyni riyakarlıq davam edir. Ermənilər nəinki şifahi sözə, heç yazdıqları imzaya, sazişə belə əməl eləməyiblər.

1918-ci ilin mayında İrəvanın siyasi mərkəz kimi ermənilərə keçməsi müqabilində Qarabağın dağlıq hissinə iddia etməyəcəkləri öhdəliyini götürmüşdülər. Amma qısa müddətdən sonra geniş ərazi iddiaları ilə çıxış elədilər. 1919-cu il noyabrın 23-də tərəflər arasında saziş imzalandı ki, Zəngəzur ərazisindən qoşunları geri çəkəcəklər. Azərbaycan tərəfi qoşunları çıxartdı, ermənilər isə nəinki qoşunu çıxartmadılar, Zəngəzurun ərazisində böyük qətliamlar törətdilər. Orada ərazinin əsas hissəsi müsəlman azərbaycanlılarından ibarət idi, sadəcə Rusiyanın köçürülmə siyasəti nəticəsində Zəngəzurda da erməni ailələri yerləşdirilmişdi. Bütün bunlara baxmayaraq demoqrafik baxımdan miqyasa gəlməyən üstünlük azərbaycanlılar tərəfdə idi. Amma elə bir situasiya yaratdılar ki, məhz Andranikin başçılığı ilə sovet illərində Zəngəzur ərazisində ermənilər demoqrafik vəziyyəti dəyişmək, torpaqları işğal etməklə yanaşı, eyni zamanda strateji baxımdan türk dünyasının bir-biri ilə əlaqəsini qırmaq üçün Zəngəzur ərazisini erməni hakimiyyətinə tabe etdirməyə nail olmuşdular. Ona görə də beynəlxalq səviyyədə ermənilərin hər hansı bir sivil yolla hərəkət etməsi təcrübəsinin olmadığı müasir dövrümüzdə baş verən proseslər də özünü göstərdi. Ermənilər tərk elədikləri yerlərin təbiətinə divan tutdular, abidələrini məhv elədilər. Əgər bunlar özlərini sivil xalq hesab edirlərsə, özlərini Cənubi Qafqaza xristianlığı gətirən ilklərdən sayırlarsa, o zaman o monastırlara, alban abidələrinə tutduqları divanı nəylə izah etmək olar. Əgər sən bu yerləri özünün hesab edirsənsə, onda niyə orta əsrlərə mənsub olan

> *Azərbaycan xalqının həmin torpaqlara qayıtmaq haqqı həm tarixi əsasa, həm mənəvi əsasa söykənir*

"yandırılmış torpaq" taktikasından istifadə edirsən. Təbiətini yandırır, məzarlarını qazıb yox edirsən. Əgər sənin burda izin varsa, niyə onda öz izini məhv edirsən?

**_- Bəs necə olur ki, öz yalanları ilə dünyaya meydan oxuyur bu erməni?_**

- O yalanı təşviq edən, işləməsi mexanizmini dəstəkləyən, yönəldən qüvvələr də olub. Həmin qüvvələr bunu erməni xalqına canı yandığı üçün eləməyib. Ermənilərdən bir alət kimi istifadə olunub. Osmanlı imperiyası dönəmində ermənilər "sakit millət" elan olunmuşdu. Ermənilərə ən yüksək status verməklə hörmətli bir münasibət göstərilmişdi. Bunun müqabilində Osmanlı dövlətini parçalamaq istəyən qüvvələr dini-etnik amildən istifadə etmək üçün bir alət kimi ermənilərdən istifadə edilib.

Erməni millətçiləri də özlərinin sayqı gördükləri bir dövlətə qarşı ölkə daxilində ikinci bir cəbhə təşkil elədilər, hətta bu hakimiyyətə qarşı terror törətdilər. Biz ermənilərin zaman-zaman Azərbaycan torpaqlarından nəsə qoparmaq niyyətində olduğunu görmüşük. Bunun aktiv şəkil alması isə 19-cu əsrdən başlayır. 19-cu əsrdə Qafqazda müsəlman sərhədləri çərçivəsində bir xristian dalanı yaratmaq istəyən Rusiya imperiyası osmanlı, İran və Cənubi Qafqazın hüdudlarından erməniləri bizim ərazilərə köçürdülər. Erməni separatizmi artıq 19-cu əsrin sonlarında Qafqazda özünü açıq biruzə vermişdi.

**_- Biz qalibik və Prezident İlham Əliyev çıxışlarında deyir ki, "biz Zəngəzurda yerləşmişik və orada möhkəmlənirik. Bu, bizim torpağımızdır" və "Biz harada lazım bilsək, orada da duracağıq". Bu fikirlərin gücü və qətiyyəti hansı tarixə, kökə əsaslanır, söykənir?_**

- Prezidentin dediklərinin tarixi əsası var. Çünki Zəngəzur zaman-zaman Azərbaycan ərazilərində mövcud olmuş dövlətlərin ərazisində olub. Cumhuriyyət dönəmində isə nəinki Zəngəzur, heç Qarabağla bağlı hər hansı mübahisə görünmürdü. Bu torpaqları əzəli Azərbaycan torpaqları idi. Ona görə də hökumət başçısı Nəsib bəy Yusifbəyli də çıxışlarında deyirdi ki, bizim Qarabağ xüsusunda hər hansı bir mübahisəmiz yoxdur. Bu torpaqlar birmənalı şəkildə Azərbaycanındır. Xosrov Paşa Sultanovun başçılığı ilə xüsusi bir Qarabağ general Qubernatorluğu yaradılmışdı və Zəngəzur da onun tərkibində idi.

Ona görə də 1920-ci il Azərbaycan Cumhuriyyəti işğal nəticəsində devrildi sonra qonşu erməni ərazisindəki daşnaq hökuməti sovetləşmək niyyəti ilə Azərbaycan torpaqları üzərindən möhtəkirlik etdi. Və Azərbaycan sovet hökumətinin başçısı Nərimanov davamlı olaraq Şərur, Dərələyəz, Ordubad, Naxçıvan, Qarabağ, Zəngəzurun əzəli Azərbaycan torpaqları olduğunu birmənalı şəkildə Rusiya hakimiyyəti qarşısında qoyurdu. Belə bir paralel aparmaq olar. Bugünkü Ermənistan hakimiyyəti, dünənki himayədarı, indi də onu öz cazibəsinə çəkmək istəyən Rusiyadan üzünü çevirib Qərbə meyllənir. Bunun müqabilində isə Rusiya onu yenidən öz ağuşuna çəkmək üçün bir sövdələşmə prosesinə başlayıb. 20-ci ildə də eyni məsələ idi. 20-ci ildə də Daşnaq hökumətini Antanta qanadından ayırıb öz nüfuzuna çəkmək üçün noyabrda bir sovet hökuməti elan edildi.

Bundan sonra artıq Azərbaycan ərazisi olan Zəngəzurun bir hissəsi Azərbaycan adından Ermənistana "hədiyyə" edildi. Ona görə bu gün Prezident "Şərqi Zəngəzur", Qərbi Zəngəzur sözlərini işlədir. Bunun tarixi əsası ondan qaynaqlanır ki, vaxtilə bütöv bir Zəngəzur olub və o da Azərbaycan qəzası olub. Zəngəzur qəzası Gəncə Quberniyasının tərkibində idi. Əhalisinə və ərazisinə görə ən böyük qəzalardan biri idi. Amma 20-ci ildə onun dağlıq hissəsi Azərbaycan xalqının iradəsi əleyhinə olaraq ermənilərə verildiyinə görə Azərbaycanda qalan hissəsini bu gün Şərqi Zəngəzur adlandırmaqla Prezident açıq mesaj verdi ki, Zəngəzurun şərqi varsa, Qərbi də var. O Qərb də Azərbaycanın iradəsi əleyhinə ermənilərə verilmiş torpaqlardır. Azərbaycan xalqının həmin torpaqlara qayıtmaq haqqı həm tarixi əsasa, həm mənəvi əsasa söykənir, siyasi baxımdan da bu gün aktualdır.

Bu gün Azərbaycan müstəqildir, öz iradəsinə özü sahibdir və Azərbaycan hakimiyyəti xalqın iradəsini təmsil edərək, vaxtilə onun iradəsi əleyhinə ermənilərə verilmiş torpaqların geri qaytarılması və Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi yönündə haqlı davasını aparır.

**_- İstərdim Qaragöl və ətraf bölgələrin vaxtilə ermənilərin nəzarətinə keçməsinin tarixinə diqqət çəkəsiniz. Qaragölün ermənilərin nəzarətinə verilməsi hansı sənədlər əsasında verilib?_**

- Sovet hakimiyyəti illərində Məhəmməd Əmin Rəsulzadənin gözəl bir ifadəsi var. O deyir ki, Rusiya hökuməti üçün önəmli deyildi ki, bu torpaq ermənidədir, gürcüdədir, yaxud azərbaycanlıdadır. Yetər ki, hamısı özünün nəzarəti altında olsun. Ona görə də sovet hakimiyyəti illərində çox zaman yaylaq, qışlaq məsələsi ilə bağlı Ermənistan SSR, Azərbaycan SSR arasında müəyyən ərazilər yenə də rəsmi olaraq, sənədləşdirilmədən mərkəzi qüvvələrin dəstəyi altında bu və ya digər şəkildə ermənilərin də faydalanması, istifadəsi üçün verilirdi. Amma bu o demək deyildi ki, rəsmi olaraq ermənilərin nəzarəti altındadır. Ona görə də 70 il ərzində Azərbaycanın iradəsi əleyhinə hansısa partiya sərəncamları ilə Azərbaycandan qoparılmış torpaqların geri alınması üçün bu gün mütləq mənada iddia qaldırılmalıdır. Çünki bu torpaqlar sovet hakimiyyəti dövründə qanunsuz olaraq mərkəz tərəfindən dəstəklənərək ermənilərə istifadəyə verilmişdi. Bu, partiya qərarları ilə edilirdi və bu da bizim üçün hüquqi statusa malik deyil. Azərbaycan respublikası müstəqilliyini elan edəndə özünü Azərbaycan Xalq Cumhuriyyətinin varisi elan edib. Cumhuriyyətin torpaqları isə birmənalı şəkildə mübahisəsiz 114 min kvadrat kilometrdir. Bu gün biz BMT səviyyəsində tanınmış 86-6 min kvadrat sərhədimizin tam olaraq bərpa olunması, vaxtilə xalqımızın iradəsi əleyhinə verilmiş torpaqlarn geri qaytarılması üçün zəmin qururuq.

Bu, erməni hakimiyyətinin bugünükü davranışından qaynaqlanır. Məğlub ermənilərin imzaladıqları kapitulyasiya aktına riayət etməmələri, yenidən təcavüzkar hərəkətlərini davam etdirmələri əsas verir ki, kompensasiya olaraq Azərbaycan ərazisinə dəymiş zərər, Azərbaycan xalqının mənəvi, cismani baxımından yaşadıqlarının müqabilində beynəlxalq səviyyədə araşdırılsın və təzminat olaraq vaxtilə ona məxsus ərazilərin də qaytarılması məsələsi öz həllini tapsın. Zəngəzur dəhlizinin açılması məsələsi də məhz elə ermənilərin sənəddə qoyduğu imza ilə təsbit olunub. Bundan geri çəkilmək isə Azərbaycan tərəfindən danışıqlar masasında yox, yeni zəfərlə nəticələnə biləcək əməliyyatın keçirilməsinə əsas verə bilər.

**_- Prezident deyir ki, "Zəngəzur və Göyçə mahalından zorla qovulan vətəndaşlarımızın tam haqqı var ki, gedib öz dədə-baba torpaqlarında yaşasınlar". İstərdim tarixə baxış edək ki, bilməyənlər də bilsin. Azərbaycanlılar Zəngəzur və Göyçə mahalından hansı mərhələlərdə qovulublar?_**

- 100 ilə nəzər salsaq, 1905-6-cı illərdə həmin adını çəkdiyiniz ərazilərdə və ondan da geniş coğrafiyada Azərbaycan xalqı o vəhşəti yaşıyıb. 1918-20-ci illərdə İrəvan quberniyasının xeyli hissəsi Azərbaycan Cumhuriyyətinin nəzarəti altında qalmışdı. Və sərhəd Göyçə gölünün ortasından keçirdi. 20-ci ildə xüsusi bir qərar verilmişdi ki, Şəmkir qəzasının yaradılması ilə bağlı Göyçə gölünün ətrafında 34 kəndin daxil olduğu ərazidə bir qəza yaradılsın. Stalin buna imkan vermədi. Ona görə də 20-ci ildə daşnaq hökuməti ilə olan sövdələşmə Göyçə ətrafnda Azərbaycan hakmiyyətindən çıxmasına gətirib çıxardı. 1948-53-cü illərdə isə Ermənistan SSRİ-də yaşayan azərbaycanlıların deportasiya olunması, azərbaycanlıların sıxışdırılmasına gətirib çıxartdı. Sonuncu mərhələdə 1988-ci ildən başlayaraq 300 minə yaxın azərbaycan türkləri ordan qovuldu. Hesab edirəm ki, o məsələ də qaldırılmalıdır ki, Göyçə Zəngəzur ərazisində azərbaycanlılara muxtariyyat statusu verilsin. Azərbaycanlılar o statusda öz torpaqlarına qayıtsınlar.

✍ **_Tahirə Qafarlı_**

# "Qanunsuz erməni postları vurulmalıdır"

Çağırış

**_Regionda Qarabağla bağlı problemlər qalır. Problemlər isə Azərbaycandan yox, Ermənistan və xüsusilə Rusiyadan qaynaqlanır._**



**Məhəmməd Əsadullazadə,**
politoloq

■ **Bunu politoloq Məhəmməd Əsadullazadə İlham Əliyevin CNN Türk-ə müsahibəsində verdiyi mesajlardan danışarkən deyib. O bildirib ki, razılaşmalar pozulub və vəziyyət gərgin olaraq qalır:**

"Azərbaycan 10 Noyabr Bəyannaməsinə və 11 Yanvar üçtərəfli razılaşmasına qol çəkib. Azərbaycan gözləyirdi ki, Rusiya və Ermənistan öhdəliklərə əməl edəcək və Bəyannamənin 4-cü bəndində göstərildiyi kimi, erməni silahlı qüvvələri bölgədən çıxarılacaq. Proseslərin indiki mərhələsində Rusiya buna əməl etmir. Bu, Azərbaycanın problemi deyil.

Rusiyanın Ermənistanı silahlandırmasına dair Prezidentin qeydləri və açıq şəkildə Rusiya müdafiə nazirinin adını açıqlaması və 30 il ərzində verilən həmin silahların Bakıda sərgidə nümayiş olunmasını qeyd etməsi Moskvaya ciddi mesaj idi. Yəni bundan sonra da verilən həmin silahlar növbəti dəfə Bakıda sərgilənə bilər.

Prezident Ermənistanın verdiyi mina xəritələrinin həqiqəti əks etdirmədiyini vurğuladı. Göründüyü kimi, İrəvan hər fürsətdə Azərbaycana qarşıdır. Bundan sonra saxlanılan erməni diversantlar Ermənistana qaytarılmayacaq". Politoloq bildirir ki, Rusiyanın Ermənistanı silahlandırması artıq İrəvanla sülh müqaviləsinin bağlanmasına Moskvanın imkan verməyəcəyini göstərir:

"Rusiya iki ölkə arasında sülhün əldə edilməsinə və "Zəngəzur" dəhlizinin açılmasına qarşıdır. Ümumiyyətlə, Rusiyanın nəyinə lazımdır Zəngəzur dəhlizi? Əgər Ermənistanla sülh əldə edilsə, bu ölkə Azərbaycanın ərazi bütövlüyünü tanıyarsa, Rusiyanın Qarabağda mövcudluğuna ehtiyac olmayacaq. Rusiya buna gedəcəkmi?! Təbii ki, getməyəcək. Ona görə də Azərbaycan Prezidenti vəziyyətin gərgin olduğunu qeyd etdi və mesajlarını verdi".

✍ **_Tahirə Qafarlı_**

# Sülhməramlılar - erməniməramlı olublar



**_Ermənistanın Azərbaycana qarşı revanşist çıxışları davam edir. Vəziyyət İranın cənubdan, Ermənistanın sərhədboyu, Rusiyanın isə Qarabağda yerləşən sülhməramlılarının missiyasından kənar davranışları ilə daha da gərginləşib. Yaranmış vəziyyət və regionda Ermənistanı dəstəkləyən yeni platformanın meydana çıxması Azərbaycanın dost ölkələrlə hərbi əməkdaşlığının daha aktiv fazaya keçməsi ilə bağlı siqnallar verir._**

■ **Politoloq Zərdüşt Əlizadə hafta.az-a şərhində regionda nələrin baş verməsindən asılı olmayaraq, Azərbaycanın dost ölkələrlə, xüsusilə də Türkiyə ilə birgə əməkdaşlığının olduğunu xatırladıb:**

"Onsuz da Türkiyə ilə Azərbaycanın əməkdaşlığı ən yüksək səviyyədədir. Bu proses daha aktiv fazaya doğru inkişaf edir". Z.Əlizadə hesab edir ki, beynəlxalq təcrübədə bundan yüksək əməkdaşlıq olmayıb. Yəni iki dövlətin birinin digərinin tərkibinə daxil olması mümkün olmasa da, bütün sahələr üzrə əməkdaşlıq, bir birinə dəstək var. Politoloq bu gün Rusiya sülhməramlılarının öz missiyasından kənar çıxışlarına da birmənalı yanaşıb. Onun sözlərinə görə, 10 Noyabr Bəyannaməsinə əsasən rus sülhməramlılarının erməni silahlılarını regiondan qovmaması faktına beynəlxalq müstəvidə qəbul olunan sənədlərin həmişə yerinə yetirilməməsi prizmasından yanaşmaq lazımdır.:

"Rusiya sülhməramlıları 3 tərəfli imzalanmış bəyanat əsasında Qarabağda yerləşiblər. Azərbaycan Prezidenti də bu Bəyannaməyə imza atıb. Bu mənada Rusiya sülhməramlılarının regiona gəlişi bəlli idi və əgər bu gün bunun ziyanlı tərəfləri görünürsə, ondan qaçmaq özü də bir diplomatik bacarıq tələb edir".

Z.Əlizadənin fikrincə, bu gün Azərbaycan sülhməramlılarla toqquşmaya getmədən də Rusiyanın məhvolma prosesi elə mərhələyə çatacaq ki, tədricən problemləri özözünə həll olunacaq.

"Rusiya elə bir vəziyyətə gəlib çatacaq ki, özü başını aşağı salıb dinc şəkildə çıxıb gedəcək. O ki qaldı İranın yükdolu maşınlarının Xankəndiyə gəlməsinə, hesab edirəm ki, oradan Azərbaycanın milli təhlükəsizliyinə ciddi təhlükə yaradacaq heç nə gətirə bilməzlər. Qarabağda 15 min erməni əhalisi qalıb. Onların arasında 1000-1500 nəfər silahlı erməni var, silahları da əsasən avtomatdan, qumbaraatanlardan ibarətdir. Onlar bu resursla Azərbaycana neyliyə bilərlər, heç nə!. Qarabağda Azərbaycanın 50 minə yaxın hərbi qoşun hissələri var. İran ermənilərə Atom bombası vermir ki, biz bundan belə narahat oluruq. Ermənilərin bu hay-küyü Azərbaycan üçün heç bir təhdid doğura bilməz. İrandan Ermənistana hansısa mallar gəlir, orada sürücülər də alacaqları pulun müqabilində hərəkət edirlər. İran Qarabağa Azərbaycan üçün təhdid doğuran heç nə göndərməz. Sadəcə, İran xalqı buna yol verməz".

> *İki dövlətin birinin digərinin tərkibinə daxil olması mümkün olmasa da, bütün sahələr üzrə əməkdaşlıq, bir birinə dəstək var*

> *Biz məkrli, hiyləgər, xəyanətkar toplumla üz-üzəyik. Məsələ bu qrupun güclü olmasından yox, prosesi gərginləşdirmək istəyənlərin məkirli fitfalarından gedir*

■ **Milli Məclisin deputatı Elman Məmmədov hafta.az-a bildirir ki, indiki vəziyyətdə bütün sualların bir cavabı var; biz ehtiyatı əldən verməməliyik, ayaq-sayaq olmalıyıq, eyni zamanda ordumuzun döyüş qabiliyyətini günügündən gücləndirməliyik.**

"Biz məkrli, hiyləgər, xəyanətkar toplumla üz-üzəyik. Məsələ bu qrupun güclü olmasından yox, prosesi gərginləşdirmək istəyənlərin məkirli fitfalarından gedir. Bütün tarix boyu belə olub, bu gün də davam edir. Sülhməramlılar Azərbaycan ərazisinə qədəm qoyan gündən sülhməramlılar yox, erməniməramlı olublar. Bu deyilənlər də öz təsdiqini tapır. Beynəlxalq hüquqda BMT-nin Millətlər Təşkilatının müvafiq qanununda sülhməramlılıq missiyasının nədən ibarət olduğu aydın-açıq ifadə olunur. Bunlar Azərbaycan ərazisinə gələndən sülhməramlılıq missiyasına zidd olan hərəkətlərlə məşğul olurlar. Bu məsələ bu gün də davam edir. Ona görə də biz heç bir tərəfdaşlıq, əməkdaşlıq kimi şirin vədə, sözə etibar edə bilmərik, biz də tərəfdaşlığın, əməkdaşığın tərəfdarıyıq. Öz sözümüzdə nə qədər səmimi olsaq da, bizə qarşı əks-münasibət sərgilənir. İstəyirik ki, münasibətlərimizdə səmimi olaq, riyakar, xəyanətkar olmayaq. Qarşı tərəflər öz öhdəliklərinə əməl etmirlər. Hesab edirəm ki, heç kimə yox, öz gücümüzə arxayın olmalıyıq".

Mövcud gəgin vəziyyətdə Türkiyə ilə hərbi əməkdaşlıq müstəvisində hansı yeni addımların atılmasına gəlincə, Elman Məmmədov bildirir ki, Türkiyə ilə müttəfiqlik səviyyəsinə qalxmış müqavilələrimiz, sazişlərimiz, bəyannamələrimiz, Şuşa Bəyannaməsi kimi əməkdaşlıq sənədlərimz var.

"Eyni zamanda təhlükəsizliyimiz naminə qardaş Pakistan və digər dost dövlətlərlə, o cümlədən İsrail, Ukrayna və digər dövlətlərlə əlaqələrimizi inkişaf etdirməliyik".

✍ **_Tahirə Qafarlı_**